**EVDƏ QAL, SAĞLAM QAL!**

**YAP İdarə Heyətinin videokonfrans formatında iclası keçirilib**



Bax 3

**Ermənistan: “Bakı və Ankaranın hərbi-siyasi mesajları narahatlıq doğurur”**



Bax 5



**“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir**


# SƏS

**QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!**

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 137 (6101) 13 avqust 2020-ci il. **Qiyməti 40 qəpik**

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.




Bax 2

# Prezident İlham Əliyev Bakıya gətirilmiş “LEVC TX” modelli yeni “London taksi”ləri ilə tanış olub



## Hikmət Hacıyev: “Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası sanki saxta tarix dərsliyidir”

Bu günlərdə Ermənistan özünün yeni Milli Təhlükəsizlik Strategiyasını ictimaiyyət üçün açıqlayıb. Strategiyaya ön söz kimi yazılmış qeydlərdə baş nazir N.Paşinyan geniş şəkildə erməni tarixinə istinadlar edir, Ermənistan dağlıq yaylası, Hayk, çar Artaşes, Arşakilər, Van çarlığı, soyqırımı və s. kimi mifik tarixi məqamlara toxunur ki, bu da format olaraq belə sənədlərə tamamilə uyğun gəlmir. Bax 4

## TƏBİB: Azərbaycanda gələn həftədən testlərin keçirilməsinə başlanılacaq



“Azərbaycanda koronavirus pandemiyası ilə əlaqədar mübarizədə növbəti həftədən seroloji testlərin keçirilməsinə başlanılacaq”. Bunu tibb üzrə fəlsəfə doktoru, TƏBİB Mikrobiologiya İşçi qrupunun rəhbəri Qumral Ələkbərova deyib. Onun sözlərinə görə, testlər təsadüfi seçilmiş əhali qrupları arasında könüllülük prinsipi ilə aparılacaq: “Həmin şəxslərə zəng etdikdən sonra razılaşdıqları halda qeydiyyatda olduqları poliklinikada hazırlanmış tibbi heyət həmin şəxslərin evinə yaxınlaşıb qan nümunələri ... Bax 10

## “Milli Şura”nın qeybət şousu: şüursuzlar, cütdırnaqlı sevgisi və təlxək obrazı

Bax 7



AXCP və “Milli Şura”nın “zoom” toplantısı fonundakı qeybət-xana serialları necə deyərlər, “tam sürətlə” davam edir və davam etdikcə də, oradakı başıpozuqlar yığnağının nə qədər “şüura” malik olduqları daha çox ortaya çıxmağa başlayır.

## “Sərnişindaşımanın bərpası Operativ Qərargahın qərarından sonra bəlli olacaq”



Şəhərlərarası və rayonlararası sərnişindaşımanın bərpası yalnız Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarından sonra bəlli olacaq. Bu barədə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında... Bax 7

## Terrorçu dövlət, işğalçı siyasət və ac xalq...



Bax 8

Hakimiyyətə gəldiyi ilk gündən işğalçı ölkənin baş naziri Nikol Paşinyan verdiyi vədləri elə vədlər olaraq qalıb. Necə deyərlər ziddiyyətlər məngənəsində sıxılan Nikolun röyası elə röya olaraq qalmaqdadır. Bu iki ilədən çoxdur ki, erməni xalqı nə bir xoş gün gördü, nə sosial problemləri həll olundu, nə də firavan həyat keçirdilər. Bu isə xalq ilə Paşinyan arasında ziddiyyətlərin...

## “Ermənistandakı qəddarlığa yalnız Soyqırım və Holokost haqqında filmlərdə rast gəldim”



Ermənistanda müvəkkilə lazımi reabilitasiya müalicəsi yoxdur. SİA Ermənistana məxsus armenianreport.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri müdafiə nazirinin keçmiş müavini, keçmiş deputat, “Yerkrapa” birliyinin keçmiş rəhbəri Manvel Qriqoryanın vəkili Levon Baqdasaryan deyib. Onun sözlərinə görə, son epikriz deyilənlərə sübutdur. Bax 9

**Azərbaycanda 93 nəfər koronavirusa yoluxdu, 202 nəfər sağaldı**



Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət

| Ümumi | | Bu gün 12.08.2020 | |
|---|---|---|---|
| Ümumi yoluxanların sayı | 33824 | Yeni yoluxanların sayı | 93 |
| Ümumi sağalanların sayı | 31058 | Yeni sağalanların sayı | 202 |
| Aktiv xəstə sayı | 2269 | Bugünkü test sayı | 8054 |
| Ümumi test sayı | 804513 | Bugünkü ölüm sayı | 2 |
| Ümumi ölüm sayı | 497 | | |

Koronavirus İnformasiya Portalı · koronavirusinfoaz · KoronaVirus İnformasiya portalı

Bax 7

**Bu şəxslərə təkrarən yardımların verilməsinə başlanıldı**



Bax 12

**Koutinyo “Barselona”ya qarşı oynaya bilər?**



Bax 16

# Prezident İlham Əliyev Bakıya gətirilmiş “LEVC TX” modelli yeni “London taksi”ləri ilə tanış olub

***Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində fəaliyyət göstərən ‘’Bakı Taksi Xidməti’’ Məhdud Məsuliyyətli Cəmiyyətinin 6 nəfərlik müştəri salonu olan, müasir standartlara cavab verən “LEVC TX” modelli yeni 100 ədəd “London taksi”si vətəndaşlar üçün xidmətə hazırdır.***



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də yeni taksilərlə tanış olub.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə Prezident İlham Əliyevə yeni taksilərin xüsusiyyətləri barədə məlumat verdi.










Nazir bildirdi ki, yeni taksilərdə həm sürücülər, həm də sərnişinlər üçün tam təhlükəsiz və rahat şərait təmin olunub. “LEVC TX” modelli yeni taksinin bir sıra üstünlükləri var. Belə ki, bu model taksilər yanacaq əvəzinə elektriklə işləyir. Avtomobillər həm ev şəraitində, həm də xüsusi quraşdırılmış məntəqələrdə cərəyanla təmin oluna bilər. Smart konfiqurasiyalı avtomobil 130 kilometrə qədər sırf elektriklə çalışır, sonra rejimin dəyişməsi mümkündür. Bu isə ətraf mühitə və ekologiyaya ziyanın sıfıra endirilməsi deməkdir.

Smart texnologiyaların geniş tətbiq edildiyi taksilər həm sürücü, həm də sərnişinlər üçün təhlükəsizdir. Belə ki, avtomobil özü yoldakı sürət həddi barədə sürücünü xəbərdar edir. Sürücü idarəetməni itirdikdə və ya yol trayektoriyasını dəyişdikdə xüsusi sensorlar ona müvafiq məlumatı ötürür.

Yeni taksilərin sərnişin kabinəsi digər “London taksi”lərindən fərqli olaraq daha genişdir və altı oturacağı var. Avtomobillərdə USB portlar, “Wi-Fi” və GPS quraşdırılıb. Sürücü ilə sərnişin arasında əlaqəni minimuma endirmək üçün şüşə arakəsmə mövcuddur. Bu isə pandemiya dövründə təcrid və sosial məsafə baxımından da olduqca əlverişlidir. Kabinədə sürücü ilə əlaqə üçün xüsusi mikrofon, görmə qüsurlu sərnişinlər üçün brayl əlifbası ilə idarəetmə paneli, eşitmə əngəllilər üçün isə təlimat lövhəsi var. Avtomobil fiziki əngəllilər üçün pandusla təchiz edilib. Bu taksilərdə ödənişi post-terminal vasitəsilə də həyata keçirmək mümkün olacaq.

Prezident İlham Əliyevə məlumat verildi ki, hazırda paytaxtda ‘’Bakı Taksi Xidməti’’ Məhdud Məsuliyyətli Cəmiyyətinin 1200 taksisi sakinlərə xidmət göstərir. London “TX4” modelləri 5 nəfərlikdir.

Onu da qeyd edək ki, yeni gətirilən taksilər “Android” sistemi ilə təchiz olunub. Bu isə sürücülər üçün geniş imkanlar açır. Belə ki, sürücülər bütün prosesi monitor vasitəsilə idarə edə bilir.

Yeni taksilərin Bakıya gətirilməsi paytaxtda sərnişindaşımanın bu növü üzrə xidməti daha yüksək səviyyəyə qaldırmağa imkan verəcək. Sonra Prezident İlham Əliyev yeni taksini idarə etdi.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev “Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) 2020-ci il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 7 avqust tarixli 160-VIQD nömrəli Qanununun tətbiqi və “Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) 2020-ci il büdcəsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1697-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 dekabr tarixli 881 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 7 avqust tarixli 159-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 dekabr tarixli 877 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

# YAP İdarə Heyətinin videokonfrans formatında iclası keçirilib



***Avqustun 12-də Yeni Azərbaycan Partiyası İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib. SİA-nın verdiyi məlumata görə, iclasda pamdemiya ilə əlaqədar Yeni Azərbaycan Partiyasının gördüyü işlər barəsində qısa məlumat verilib. Qeyd edilib ki, Azərbaycan Respublikasında koronavirus pandemiyasının geniş yayılmaması və pandemiyanın vura biləcəyi zərərin qarşısını almaq üçün sistemli tədbirlər həyata keçirilib.***

Yeni Azərbaycan Partiyası da öz növbəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə təşəbbüsü və birbaşa rəhbərliyi altında epidemiyanın qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərdə yaxından və fəal iştirak etmiş, bu istiqamətdə bir sıra mühüm aksiyalar keçirmişdir.

İclasda Yeni Azərbaycan Partiyasının Nəsimi, Ağdaş və Ağdam rayon təşkilatlarının hesabat-seçki konfranslarından ötən dövr ərzində fəaliyyətinə dair hesabatı dinlənilmişdir. İdarə Heyətinin iclasında hesabatı dinlənilən rayon təşkilatlarının fəaliyyəti qənaətbəxş hesab edilmiş, onların gələcək fəaliyyətinə dair tövsiyyələr verilib. İclasda daha sonra partiya həyatı ilə bağlı bir sıra məsələlər müzakirə edilib.

# Ərdoğanın Zakir Həsənovu qəbul etməsi nəyə işarədir?



***"Türkiyə Prezidentinin Azərbaycanın Müdafiə naziri Zakir Həsənovu qəbul etməsi buna işarə edir ki, əgər, münaqişənin həllində hərbi üsuldan istifadə olunarsa Türkiyə Azərbaycanla birlikdə bunu etməyə hazırdır". Bu sözləriSİA-ya açıqlamasında Qərbi Kaspi Universitetinin "Siyasi Elmlər" kafedrasının müdiri, siyasi məsələlər üzrə ekspert Fikrət Sadıxov Azərbaycan Respublikası Xarici İşlər naziri Ceyhun Bayramovun və Azərbaycan Respublikasının Müdafiə Naziri Zakir Həsənovun Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qəbul edilməsini şərh edərkən deyib.***

Onun sözlərinə görə, Türkiyənin xarici siyasət istiqamətləri artıq reallaşmağa başlayıb: "Bu xarici siyasi istiqamətlərin reallaşmasının əsas prioritetləri Azərbaycana dəstək verməkdir. Xüsusilə də, Ermənistan-Azərbaycan münaqişəsi kontekstində, Dağlıq Qarabağ məsələsi kontekstində bu məsələlər diplomatik səviyyədə ölkənin Xarici İşlər naziri ilə ciddi şəkildə müzakirə olundu. Əvvəlcə Türkiyənin Xarici İşlər Nazirliyi səviyyəsində, daha sonra isə dövlət başçısı səviyyəsində bu məsələlər masaya yatırıldı. Bu mühüm bir istiqamətdir. Bunu dəfələrlə Türkiyə rəsmiləri bəyan ediblər və müxtəlif beynəlxalq tribunalarda Azərbaycanı dəstəklədikləri haqqında, ölkəmizi müdafiə etməklə bağlı bəyanatlar səsləndiriblər. Bu da onu göstərir ki, Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək məqsədi və hədəfi Türkiyə tərəfindən tam dəstəklənir".

Fikrət Sadıqovun fikrincə, Türkiyə Prezidentinin Azərbaycanın Müdafiə naziri Zakir Həsənovu qəbul etməsi buna işarə edir ki, Türkiyə Azərbaycanın yanındadır və Dağlıq Qarabağ münaqişəsinin həllində də həmişə Azərbaycanın yanında olacaq və əgər, hərbi üsuldan istifadə olunarsa Türkiyə Azərbaycanla birlikdə bunu etməyə hazırdır:

"Həm hərbi-texniki əməkdaşlıq baxımından, həm də bu proseslərdə yaxından iştirak baxımından Türkiyə Azərbaycana dəstək olmağa hazırdır. Bunu irimiqyaslı Azərbaycan-Türkiyə hərbi təlimləri də təsdiq etdi. Çünki, bu xaricidə də böyük bir reaksiya doğurdu. Xüsusilə də Ermənistanda böyük şok reaksiya ilə qarşılandı. Bütün bu proseslər də əlbəttə ki, indiki vəziyyəti əks etdirən reallıqlardır".

***Nigar Məmmədova***

# Sevinc Fətəliyeva: "Prezidentin fikirləri xalqımızda bir daha əminlik yaradır ki,..."

"Azərbaycanın neft strategiyasının uğurla həyata keçirilməsi ölkəmizin ən böyük nailiyyətlərindən biridir. Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu neft strategiyası müstəqil dövlətimizin hərtərəfli inkişafının bünövrəsini təşkil edir. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

Sevinc Fətəliyeva bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə avqustun 10-da Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda "Qarabağ" yatağının dayaq blokunun dənizə yola salınması da neft strategiyasının uğurla davam etməsinin əyani göstəricisidir. Millət vəkilinin fikrincə, neft strategiyası ölkəmizə yalnız sosial-iqtisadi dividentlər deyil, həm də siyasi dividentlər qazandırır. Belə ki, Azərbaycan ötən illər ərzində beynəlxalq müstəvidə əlaqələrini əhəmiyyətli dərəcədə genişləndirib, dünyada etibarlı tərəfdaş imici qazanıb. Təbii ki, bu amillər Azərbaycanın müstəqil dövlət kimi dünyada yerinin və rolunun güclənməsində ciddi təsir göstərib.

Millət vəkili söyləyib ki, Prezident İlham Əliyevin iştirakı ilə dayaq blokunun göndərildiyi yataq müqəddəs torpağımız olan Qarabağın adını daşıyır: "Dövlət başçısının qeyd etdiyi kimi, bu, rəmzi məna daşıyır. Cənab Prezident bildirib ki, bu gün Azərbaycan vaxtilə - 1990-cı illərdə tərk edilmiş "Qarabağ" yatağına qayıdır və bu, nəhəng dayaq bloku bunun əyani sübutudur. Dövlətimizin başçısı həmçinin qeyd edib: "1990-cı illərin əvvəllərində Azərbaycanın o vaxtkı rəhbərliyi - AXC-Müsavat cütlüyü torpaqlarımızın işğal altına düşməsinə imkan yaratdı. Yəni, onların xəyanəti, satqınlığı, fərariliyi nəticəsində torpaqlarımız işğal altına düşmüşdür. Azərbaycan, - əgər belə analogiya aparmaq mümkündürsə, - Qarabağı tərk etmişdi. Biz 2016-cı ildə torpaqlarımızın bir hissəsini qaytardıq, işğalçıları o torpaqlardan qovduq və o ərazilərə həyat qayıtdı, vətəndaşlar qayıtdı, Azərbaycan qayıtdı. Bizim ərazi bütövlüyümüz tam bərpa ediləcək, necə ki, bu gün biz vaxtilə tərk edilmiş "Qarabağ" yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!". Cənab Prezidentin bu fikirləri xalqımızda bir daha əminlik yaradır ki, işğal olunmuş torpaqlarımız tezliklə azad ediləcək və ölkəmizin ərazi bütövlüyü bərpa olunacaq".



Deputat qeyd edib ki, hazırda ölkəmizin müəllifi olduğu ən böyük layihələrdən biri olan Cənub Qaz Dəhlizinin tam reallaşması başa çatmaq üzrədir: "Dövlət başçısının qeyd etdiyi kimi, bu layihə də uğurla icra edilir, onun dördüncü və sonuncu layihəsi olan TAP artıq başa çatmaq üzrədir. Beləliklə, Azərbaycan dövlətinin təşəbbüsü ilə və genişmiqyaslı beynəlxalq əməkdaşlıq nəticəsində 3500 kilometr uzunluğunda olan, bir-birinə bağlı üç qaz kəmərinin inşası tam başa çatacaqdır və Azərbaycan qazı artıq Avropa məkanına çatdırılacaq. Bu layihə nəticəsində Azərbaycan özünün ixrac potensilanı və coğrafiyasını genişləndirəcək. "Şahdəniz" qazı Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan və İtaliyaya çatdırılacaq. Cənab Prezident bildirib ki, əgər Albaniyada qaz şəbəkəsi yaranarsa, Albaniya da bizim təbii tərəfdaşımız olacaq, biz həmin ölkəyə də qaz ixrac edə bilərik. Balkan bölgəsində yerləşən ölkələrə Azərbaycan qazının verilməsi mümkündür. Beləliklə, bu amil Azərbaycanın həmin ölkələrlə siyasi əlaqələrinin inkişafına da öz müsbət təsirini göstərə bilər. Cənab Prezident çox haqlı olaraq qeyd edib ki, Cənub Qaz Dəhlizi bizim tarixi nailiyyətimizdir. Bu layihəni həyata keçirməklə ölkəmiz Avrasiyanın yeni enerji xəritəsini tərtib edir".

***Ceyhun Rasimoğlu***

## "Mən Qarabağam, Qarabağ Azərbaycandır!"



Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun ağır nəticələri, o cümlədən Ermənistan silahlı qüvvələrinin bu ilin 12 iyul tarixində Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi növbəti hərbi təxribatı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Xarici İşlər Nazirliyi nəzdində fəaliyyət göstərən Diplomatiya Könüllüləri tərəfindən fəallıq nümayiş etdirilir. Xarici İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, diplomatiya Könüllüləri sosial şəbəkələrdə Ermənistanın yalanlarını ifşa edən paylaşımlarla çıxış edirlər. Belə ki, gənc könüllülərin Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti, törətdiyi insanlıq əleyhinə cinayətləri, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 30 ilə yaxındır ki, hərbi işğal altında saxlaması faktı ilə bağlı sosial şəbəkələrdə paylaşdıqları poster və videolar yerli və xarici auditoriyanın diqqətini cəlb edib.

Diplomatiya Könüllülərinin növbəti layihəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Qarabağ Azərbaycandır!" şüarına dəstək olaraq "Mən Qarabağam, Qarabağ Azərbaycandır!" videosu ilə Azərbaycanın işğal altında olan Qarabağ bölgəsinin dilindən dünya ictimaiyyətinə müraciəti əks etdirir. İngilis, alman, koreya, çin, fransız, ispan dillərində hazırlanan müraciətin digər dillərə də tərcümə edilməsi nəzərdə tutulur.

# Hikmət Hacıyev: “Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası sanki saxta tarix dərsliyidir”



***Bu günlərdə Ermənistan özünün yeni Milli Təhlükəsizlik Strategiyasını ictimaiyyət üçün açıqlayıb. Strategiyaya ön söz kimi yazılmış qeydlərdə baş nazir N.Paşinyan geniş şəkildə erməni tarixinə istinadlar edir, Ermənistan dağlıq yaylası, Hayk, çar Artaşes, Arşakilər, Van çarlığı, soyqırımı və s. kimi mifik tarixi məqamlara toxunur ki, bu da format olaraq belə sənədlərə tamamilə uyğun gəlmir.***

Bu fikirlər Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası ilə bağlı AZƏRTAC-a şərhində yer alıb.

Prezidentin köməkçisi qeyd edir ki, ümumiyyətlə, Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası sanki saxta tarix dərsliyidir. Adətən belə sənədlərdə tarixə bu qədər istinadlar olmur. Hiss olunur ki, Ermənistan yenə də keçmişin girovluğundan qurtula bilməyib və çatışmazlıq kompleksi özünü bu sənəddə də büruzə verib.

Strategiya ilə tanış olduqca orada şovinist, ksenofob və irqçi dəyərlərin təbliğ edildiyi dərhal sezilir. Erməni xalqının böyüklüyü, onun digər xalqlardan üstünlüyü barədə, eləcə də qonşu xalqlara qarşı dözümsüzlük kimi mesajlar verilir. Ermənistanın baş naziri Vahan Teryanın şerindən gətirdiyi sitatla böyük Babil sivilizasiyasının yer üzündən silinməsini şadyanalıqla qarşılayır. Əslində, Strategiyanın bütün məğzi “Babil bizim düşmənimiz idi. Bəs indi haradadır? Səhralarla örtülüb” sitatında cəmləşib. Bu düşüncə sahiblərinin Yaxın Şərqdə qədim tarixi abidələri dağıdan terrorçulardan heç bir fərqi yoxdur. Bütün bunları görəndə, faşist Qaregin Njdenin “Sekaqron” kimi şovinist nəzəriyyəsinin necə yaranmasının və belə ideologiyaların nəyə görə Ermənistanda bu dərəcədə geniş təbliğ olunmasının səbəbləri tam aydın olur.

Bəlkə də Ermənistandan başqa heç bir ölkənin Milli Təhlükəsizlik Strategiyasında şeir yer almayıb.

Sənəddə “məxməri inqilab”a toxunulur və onun yeni standartlar müəyyən etdiyi bildirilir. Əslində, Milli Təhlükəsizlik Strategiyasında bu tipli istinad sənədin formatına uyğun deyil və məntiqsizdir. Çünki belə sənədlərdə hər hansı bir siyasi qüvvə təbliğ edilməməli, dövlətin ümumi və uzunmüddətli təhlükəsizlik konsepsiyası təsvir olunmalıdır. Yəni, konsepsiya hakimiyyətdəki qüvvələrə deyil, dövlətin maraqlarına uyğun bir sənəd olmalıdır. Belə çıxır ki, sabah Ermənistanda N.Paşinyana və “məxməri inqilab”a əks olan qüvvələr hakimiyyətə gəldikdən sonra bu strategiya avtomatik surətdə artıq etibarsız olacaq. Belə təəssürat yaranır ki, bu Ermənistanın deyil, Soros və ona yaxın dairələrin dəstəyi ilə baş vermiş “inqilab” nəticəsində hakimiyyətə gələn, Soros fondundan pul alan N.Paşinyan hakimiyyətinin Milli Təhlükəsizlik Strategiyasıdır.

Sənəddə Ermənistan-Azərbaycan münaqişəsinə dair çoxsaylı istinadlar edilir, Azərbaycan tərəfi günahlandırılır və guya Azərbaycanda ermənifobiyanın olduğu bildirilir. Bundan əlavə, sənəddə Ermənistanın işğal olunmuş Azərbaycan torpaqlarında yaratdığı qanunsuz rejimlə bağlı məqamlar yer alır.

Bununla bağlı vurğulamaq istərdim ki, Strategiyada münaqişə ilə bağlı fakt və arqumentlər də saxtadır. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunu və ətraf yeddi rayonunu işğal edib. Ermənistan azərbaycanlılara qarşı soyqırımı törədib, etnik təmizləmə həyata keçirib, müharibə cinayətləri törədib. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin tələblərinə baxmayaraq, Ermənistan hələ də öz ordusunu işğal etdiyi ərazilərdən geri çəkməyib. Ermənistan işğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyət, o cümlədən qeyri-qanuni məskunlaşma siyasəti aparır. Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan izlərini yox etməyə çalışır. Ermənistan təmas xəttində və dövlət sərhədində atəşkəsi kobud şəkildə pozaraq təxribatlar törədir, qəsdən Azərbaycanın mülki əhalisini və obyektlərini atəşə tutur. Ermənistan danışıqlarda maraqlı deyil, süni olaraq status-kvonu uzatmağa və işğalı möhkəmləndirməyə çalışır.

2016-cı ilin Aprel döyüşləri barədə uydurma fikirlərlə bağlı qeyd etmək istərdim ki, həmin vaxt Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti təxribata əl atmışdı. Azərbaycan öz əhalisini qorumaq üçün cavab tədbirləri görmək məcburiyyətində qalmışdı. Ermənistanın Azərbaycanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi son təxribat zamanı da növbəti dəfə mülki əhali və mülki obyektlər qəsdən hədəfə alınıb.

Sənəddə xalqların öz müqəddəratını təyinetmə prinsipinə bir neçə dəfə istinadlar edilir. Qeyd edilir ki, qondarma qurumun öz müqəddəratını təyinetmə hüququ qeyri-şərtsiz tanınmalıdır.

Ermənistan işğal faktını öz müqəddəratını təyinetmə prinsipi ilə ört-basdır etməyə çalışır. Heç bir halda bu prinsip Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə aid edilə bilməz. Bu, öz müqəddəratını təyinetmə yox, işğaldır. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və buna alternativ yoxdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək.

Qondarma qurumun qeyd-şərtsiz və məhdudiyyətsiz öz müqəddəratını təyinetmə hüququnun tanınmasını tələb edən və bu qanunsuz rejimi “azad ölkə” kimi tanıyan bu strategiya sənədi özlüyündə Ermənistan tərəfindən ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar prosesinə vurulmuş növbəti ağır zərbədir. Hesab edirəm ki, həmsədrlər və ümumiyyətlə beynəlxalq ictimaiyyət bu sənədə reaksiya verməlidir.

Ümumiyyətlə, Ermənistanın özünə aid olan bir sənəddə başqa dövlətin ərazisinə dair şərhlərin verilməsi işğalçılıq siyasətinin bariz nümunəsidir.

Sənəddə iddia olunur ki, Ermənistan ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlara sadiqdir. Lakin bu ölkənin baş nazirinin “Qarabağ Ermənistandır və nöqtə”, müdafiə nazirinin “yeni torpaqlar naminə yeni müharibə” kimi bəyanatları, qondarma rejimi tərəf kimi danışıqlara cəlb etmək cəhdləri, eləcə də Strategiyada münaqişə ilə bağlı təxribat xarakterli fikirlər sübut edir ki, Ermənistan məqsədli şəkildə danışıqlar prosesini pozur və onun niyyəti işğalı davam etdirməkdir.

Strategiyada qeyd olunur ki, qondarma qurumun təhlükəsizliyini, eləcə də Ermənistan da daxil olmaqla xarici dünya ilə təhlükəsiz və şaxələnmiş kommunikasiyasını təmin edəcək lazımi müdafiə xətləri olmalıdır. Bununla Laçın rayonu və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə bitişik digər işğal olunmuş rayonlara işarə edilir. Bu bir daha onu göstərir ki, Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını qaytarmaq niyyəti yoxdur.

Sənəddə bir neçə yerdə qeyd olunur ki, Ermənistan qondarma qurumun təhlükəsizliyinin qarantıdır. Bu işğalın açıq etirafıdır. Bundan əlavə iddia edilir ki, Azərbaycanın münaqişəni hərbi yolla həll etmək cəhdi qondarma qurumun əhalisinin fiziki mövcudluğuna təhdiddir. Əslində isə Ermənistanın işğalçı siyasəti Azərbaycanın mülki əhalisinin öz doğma torpaqlarında fiziki mövcudluğuna son qoyub. Ermənistan bir milyona yaxın mülki azərbaycanlını öz doğma yurdlarından qovmaqla etnik təmizləmə siyasəti həyata keçirib.

Strategiyada bildirilir ki, danışıqlar prosesinin məqsədi “müharibənin nəticələrinin qorunması”dır. Bu, açıq şəkildə göstərir ki, Ermənistan Azərbaycan ərazilərinin işğalını davam etdirmək niyyətindədir və dayanıqlı sülhə xidmət edən danışıqlarda maraqlı deyil.

Sənədlə tanış olduqca Ermənistanın Azərbaycanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi son təxribatın məqsədyönlü şəkildə həyata keçirilməsi bir daha aydın olur.

Strategiyanı oxuduqca Ermənistanda azərbaycanafobiya aydın sezilir. Bu ölkədə azərbaycanlılara qarşı açıq nifrət aşılanır.

Sənəddə Azərbaycan tərəfindən guya ermənilərə qarşı həyata keçirilmiş uydurma qırğınlardan danışılır. Gəncə Qandzak adlandırılır. Azərbaycanlılara qarşı soyqırımı və vəhşiliklər törətmiş, Ermənistanda və işğal edilmiş ərazilərdə Azərbaycan irsini məhv edən və toponimlərini dəyişdirən bir ölkənin bu iddiaları əsl riyakarlıqdır.

Strategiyada deyilir ki, Ermənistan cəmiyyətində zorakılıq və ksenofobiyaya yer yoxdur. Əslində isə Ermənistan öz ərazisindən, eləcə də işğal etdiyi torpaqlardan 1 milyondan çox azərbaycanlını zorakılıqla qovub. Ermənistan məscidləri, tarixi abidələri, qəbirləri dağıdan bir ölkədir. Ksenofobiyanın həddi o səviyyədədir ki, Yerevandakı Göy məscidin, Şuşadakı Yuxarı Gövhər ağa məscidinin memarlıq xüsusiyyətləri və mahiyyəti dəyişdirilir, İran abidələri kimi qələmə verilir. Ermənistanda böyük Azərbaycan şairi aşıq Ələsgərin qəbri dağıdılıb. Ermənistanın keçmiş prezidenti 2003-cü ildə Avropanın mərkəzində qeyd etmişdi ki, “ermənilərlə azərbaycanlılar etnik cəhətdən uyğunsuzdur”.

Sənəddə qeyd olunur ki, ermənilər XX əsrin ilk “soyqırımı”nın qurbanlarıdır və Ermənistan beynəlxalq səviyyədə soyqırımının qarşısının alınması mövzusuna xüsusi diqqət yetirir. Bu da növbəti yalandır. Ermənistan özü XX əsrin sonlarında Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədib.

Strategiyada Türkiyəyə qarşı da fikirlər öz əksini tapır, qondarma soyqırımına istinadlar edilir. Bunun səbəbi Türkiyənin beynəlxalq hüququ və tarixi ədaləti əsas tutaraq Ermənistanı Azərbaycanın işğal edilmiş ərazilərini azad etməyə çağırmasıdır. Mifik tarixə köklənən Ermənistan bir daha nümayiş etdirir ki, qonşuları ilə sülh şəraitində yaşaya bilmir və bu səbəbdən də Ermənistanın bir dövlət kimi gələcək inkişafı mümkün deyil.

Sənəddə qeyd olunur ki, regionda demokratiya və insan haqları sahəsindəki geriləmə Ermənistanı narahat edir. Əlavə edilir ki, Azərbaycan və Türkiyədə demokratiya və insan haqları sahəsində geriləmə var və bu da bu ölkələrin beynəlxalq öhdəliklərini yerinə yetirməsinə mənfi təsir göstərir. Bu bir daha irqçilik və şovinizmin göstəricisidir. Hesab edirəm ki, başqa dövlətin ərazisini işğal etmiş, etnik təmizləmə həyata keçirmiş Ermənistan insan hüquqları barədə danışmaq haqqı olan ən axırıncı ölkədir. Yalandan və utanmadan özünü demokratiya carçısı, insan haqları müdafiəçisi kimi təqdim edən Ermənistan bizə görə narahat olmasın, diqqətini özündə geniş yayılmış insan haqları problemlərinin həllinə yönəltsin.

Ümumiyyətlə, Ermənistanın demokratiya və insan haqlarından danışmasının özü gülüncdür. Bu ölkədə 20 ilə yaxın hərbi xunta hakimiyyətdə olub, parlamentdə yüksək vəzifəli dövlət rəsmiləri güllələnib, indiki baş nazir isə siyasi rəqiblərini “asfalta uzatmaq”la hədələyir və asfalta uzadır. Ermənistanda siyasətçilər, jurnalistlər siyasi baxışlarına görə təqib olunur. Jurnalist Mger Yegiazaryan türmədə aclıq aksiyasından sonra vəfat edib.

Sənəddə regiondakı təhdidlərə istinad edilir. Vurğulamaq istərdim ki, regionda ən böyük təhdid elə Ermənistan və onun işğalçı siyasətidir. Ermənistanın milli təhlükəsizliyinə ən böyük təhlükə də məhz elə Ermənistan və N.Paşinyan hakimiyyətinin siyasətidir.

Strategiyada qeyd edilir ki, Azərbaycan və Türkiyə Ermənistanı iqtisadi blokadada saxlayır və onu regional layihələrdən kənarda qoyur. Bu açıq həyasızlıqdır. Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini işğalda saxlaması şəraitində belə ittihamlarla çıxış etməsi heç bir əndazəyə sığmır.

Ardı Səh. 5

# Hikmət Hacıyev: “Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası sanki saxta tarix dərsliyidir”

**Əvvəli-Səh-4**

Sənəddə bildirilir ki, Ermənistanın xarici siyasət baxışı beynəlxalq, millətlərarası və sivilizasiyalararası dialoqa əsaslanır. Ermənistanın belə tezislə çıxış etməsi çox gülüncdür. Bu reallığı əks etdirmir. Yuxarıda qeyd etdiyim kimi, Ermənistan öz ərazisində və Azərbaycanın işğal edilmiş torpaqlarında etnik təmizləmə aparıb, Azərbaycan xalqının mədəni və tarixi abidələrini dağıdıb, mənimsəyən bir dövlətdir. Belə dövlətin xarici siyasəti millətlərarası və sivilizasiyalararası dialoq üzərində qurula bilməz. 2016-cı ildə Ermənistan Azərbaycanda keçirilmiş BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunu boykot etmiş yeganə ölkə olub. Bu bir daha Ermənistanın təşviq etdiyi dəyərlərlə BMT-nin Sivilizasiyalar Alyansının təbliğ etdiyi dəyərlərin tamamilə bir-birinə zidd olmasını göstərir.

Strategiyada Ermənistanın Yaxın Şərq ölkələri ilə münasibətlərinin inkişafından bəhs edilir. Ermənistan İslam dünyasına aid dövlətin ərazisini işğal edib və onun İslam irsini dağıdır. Müsəlman ölkələrinin belə bir dövlətlə hansı əməkdaşlığından söhbət gedə bilər. Hesab edirəm ki, Yaxın Şərq ölkələri bu məqamı nəzərə almalıdır.

Sənəddə qeyd olunur ki, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvlərinin bir-birinə münasibətdə müttəfiqlik öhdəliklərini yerinə yetirmələri və təşkilatın səmərəliliyinin artırılması istiqamətində iş aparacaq. Sanki Ermənistan bu təşkilatın sahibidir və onun digər üzvlərinə dərs keçəcək. Ermənistan KTMT-nin heç bir üzvü ilə məsləhətləşmədən onun keçmiş baş katibini həbs etdi, indi isə təşkilatın digər üzvlərinə öhdəlikləri barədə dərs keçmək fikrindədir. Uzun müddət KTMT-nin yeni baş katibinin təyin olunmasını boykot edən Ermənistanın özü bununla da təşkilatın səmərəliliyinə ən böyük zərbə vurub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Sorosun tör-töküntüləri KTMT-nin müttəfiqləri ola bilməz.

Strategiyada deyilir ki, Ermənistan azad söz və plüralizmi təbliğ edir, terrorizm və ekstremizmə qarşıdır. Halbuki bu tam yalandır. Bu yaxınlarda Los-Ancelesdə, Brüsseldə və dünyanın digər şəhərlərində ermənilər azərbaycanlılara barbarcasına hücum etdilər və onlara xəsarətlər yetirdilər. Bu, məhz Ermənistanın ekstremizm siyasətinin nəticəsidir. Erməni diasporu da əsassız, mifik erməni müstəsnalığı üzərində qurulmuş ideologiyanı təbliğ edir. Nəticədə diaspor öz dağıdıcı fəaliyyəti ilə Ermənistan-Azərbaycan münaqişəsinin də həllinə əlavə maneələr törədir.

Sənəddə “panermənilik” haqqında yer almış məqamlarla bağlı isə qeyd etmək istərdim ki, bu, faktiki olaraq digər ölkələrin daxili işinə qarışmaq anlamına gəlir. Çünki orada yaşayan ermənilər üçün Ermənistan tərəfindən istiqamət və prioritetlər müəyyən edilir.

Strategiyada ermənilərin Ermənistana repatriasiyası üçün şəraitin yaradılacağı qeyd edilir. Bununla da Ermənistan işğal olunmuş Azərbaycan ərazilərində qanunsuz məskunlaşma siyasəti üçün əlavə insan resursları əldə etmək niyyəti güdür.

Sənəddə Ermənistanda demoqrafik böhran, dərin yoxsulluq, sosial bərabərsizlik və sosial qütbləşmənin mövcudluğu açıq etiraf edilir və artan emiqrasiya başlıca problemlərdən biri kimi göstərilir. Bununla yanaşı, Ermənistanın iqtisadi inkişafı ilə bağlı bir sıra fikirlər yer alır. Lakin unutmaq olmaz ki, Ermənistan Azərbaycan torpaqlarını azad etməyənə qədər regional iqtisadi layihələrdən kənarda qalacaq, iqtisadi təcrid şəraitində yaşayacaq. Münaqişə həll edilmədiyi təqdirdə, Ermənistanda hər hansı iqtisadi inkişaf perspektivlərindən, eləcə də emiqrasiya, yoxsulluq, işsizlik və sosial bərabərsizliyin aradan qaldırılması barədə danışmaq mənasızdır.

Əhalinin sayının sabitləşdirilməsi və demoqrafik artıma nail olmaq Ermənistan dövlətinin məqsədi kimi qarşıya qoyulub. Lakin Ermənistan öz işğalçılıq siyasətini davam etdirəcəyi təqdirdə, heç cür bu məqsədlərə nail ola bilməyəcək və vəziyyət daha da pisləşəcək. Çünki insanların Ermənistanın gələcəyinə inamı yoxdur və Azərbaycanla qarşıdurmadan qorxan bir çox erməni ölkəni tərk edir.

Strategiyada Ermənistanın yüksək texnologiyalar mərkəzi kimi inkişafı prosesində elm-təhsil sisteminin roluna xüsusi önəm verildiyi qeyd olunur. Halbuki, elə Strategiyanın özündə də etiraf edildiyi kimi, savadlı insanların ölkəni kütləvi surətdə tərk etməsi fonunda bu məqsədə necə nail olmaq olar?!

Sənəddə qeyd olunur ki, ermənilər arasında daxili problemlərin zorakılıqla həlli yolverilməzdir, azad məhkəmələr yolu ilə tənzimlənmə olmalıdır. Əslində isə onsuz da azad olmayan məhkəmələrə siyasi təzyiqlər çoxalır, baş nazirin göstərişlərini yerinə yetirmək istəməyən Konstitusiya məhkəməsi sıxışdırılır və hakimlər dəyişdirilir.

Sənədin ətraf mühitə aid bölməsində məntiqlə Metsamor atom elektrik stansiyası məsələsinə toxunulmalı idi, amma maraqlıdır ki, bu haqda heç bir istinad yoxdur. Halbuki, fəal seysmik zonada yerləşən və istismar müddəti bitmiş bu AES, ilk növbədə, elə Ermənistanın özü üçün böyük təhlükə mənbəyidir. Ümumiyyətlə, sənədin təhlili göstərir ki, Ermənistan diqqəti iqtisadi inkişaf, təhsil, elm kimi məsələlərə deyil, daha çox Azərbaycan və Türkiyəyə qarşı əsassız ittihamlara yönəldir. Bu, Ermənistan hakimiyyətinin gələcəyə baxışını xarakterizə edir. Əsas məqsəd erməni xalqını münaqişənin girovu kimi saxlamaqdır.

# “Mir-24” telekanalında AZƏRTAC-ın 100 illik yubileyinə həsr edilmiş reportaj verilib




Şərqdə və MDB-də ən qədim xəbər agentliklərindən biri, Azərbaycanda dövlət statusuna malik olan yeganə informasiya agentliyi olan AZƏRTAC bu il bir əsrlik yubileyini qeyd edir. AZƏRTAC xəbər verir ki, bu əlamətdar hadisə münasibətilə “Mir-24” teleşirkəti tərəfindən hazırlanmış reportajda AZƏRTAC-ın tarixindən, onun uğurlarından və beynəlxalq informasiya məkanında yüksək nüfuzundan bəhs edilir.

Qeyd olunur ki, AZƏRTAC-ın inkişafında Heydər Əliyevin böyük xidmətləri olub. Məhz Ümummilli Liderin sayəsində Agentlik ən müasir texniki vasitələrlə təchiz olunub. Hazırda AZƏRTAC səkkiz dildə xəbərlər buraxır. Onun saytında fotoinformasiya və videomateriallar yerləşdirilir. Dövlətin bu xəbər resursunun ölkədə və xaricdə ən böyük müxbir şəbəkəsi var. Dünyanın 21 dövlətindəAZƏRTAC-ın nümayəndəlikləri fəaliyyət göstərir.

Reportajda Agentliyin əməkdaşları ilə müsahibələr yer alıb. Onlar öz sevimli işləri, habelə dövlət agentliyi statusundan irəli gələn məsuliyyət barədə danışırlar. Agentliyin fotomüxbiri İlqar Cəfərov qiymətli bir relikviyanı nümayiş etdirərək deyib: “Mən əvvəllər bu “Nikon-FM-2” fotoaparatı ilə işləyirdim. O, mənə vicdanla xidmət edib”.

İlqar Cəfərov bu fotoaparatı 1980-ci illərin sonunda, Agentlikdə işləməyə gəldiyi vaxt almışdı. O vaxt ali məktəbin gənc məzununu redaksiyanın idman şöbəsinə təyin etdilər. O, on ildən çox həmin fotokamera ilə işlədi. Otuz il ərzində minlərlə fotoşəkil çəkmiş AZƏRTAC-ın fotomüxbiri deyir: “Mən Azərbaycan nümayəndə heyətinin tərkibində bir neçə dəfə Paralimpiya və Olimpiya oyunlarında olmuşam. Respublikada və xaricdə, o cümlədən 1998-ci ildə Moskvada, 1999-cu ildə Danimarkada Gənclərin Ümumdünya Oyunlarında fotoşəkillər çəkmişəm”. Bu şəkillərin hər biri ona əzizdir. Fotomüxbir İlqar Cəfərov ən uğurlu iş anlarından birini belə xatırlayır: “Bir dəfə yarışlardan fotoşəkillər çəkirdim. Fotoreportyorlardan biri mənə dedi ki, gəl stadiona gedək, bu gün orada tarixi qaçış olacaq - Hüseyn Bolt 200 metr məsafəyə qaçacaq. Mən onunla stadiona getdim. Hüseyn Boltun həm qaçışını, həm də portretini çəkməli oldum. Sanki bəxtim gətirmişdi. O, mənim yaxınlığımdan keçəndə şəklini çəkdim”.

Fotoarxivin əməkdaşı içərisində plyonkalar olan zərflərin saxlandığı balaca şkafı açır. Bu fotoarxivdə respublikanın və dünyanın həyatına aid mühüm hadisələr əks olunub. Azərbaycanın müstəqilliyinin ildönümü, Heydər Əliyevin BMT-nin Baş katibi ilə görüşü... Bütün plyonkalar xüsusi temperatur rejimində ayrıca zərflərdə qayğı ilə qorunub saxlanır.

Agentliyin meneceri Sədaqət Alışova deyir: “Burada 1991-ci ildən bəri çəkilmiş plyonkalar saxlanılır. 2003-cü ildən bizim fotoqraflar rəqəmsal fotoaparatlarla çəkiliş aparmağa başlayıblar. Bu şəkillər disklərdə saxlanılır. Onlar da burada, foto arxivindədir. Bundan əlavə, hazırda biz konvertasiya işləri görürük, yəni fotoşəkilləri plyonka formatından rəqəmsal formata çeviririk”.

# Ermənistan: “Bakı və Ankaranın hərbi-siyasi mesajları narahatlıq doğurur”



Ermənistan Müdafiə Nazirliyi, Türkiyə-Azərbaycan təlimlərinin hansı komponentinə diqqət yetirilməli olduğunu izah edib. SİA Ermənistana məxsus armenianrepoart.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Ermənistan Müdafiə Nazirliyi Naxçıvanda, Ermənistan sərhədləri yaxınlığında reallaşan Türkiyə-Azərbaycan birgə təlimlərinin faktiki olaraq uzadılmasına reaksiya verib.

Məlumatda qeyd olunur ki, bir qədər əvvəl təlimlərin iyulun 29-dan avqustun 10-dək aparılacağı bildirilmişdi. Ancaq avqustun 12-də Türkiyənin müdafiə naziri və Baş Qərargah rəisinin Azərbaycana gəldiyi məlum olub. Genişləndirilmiş hərbi heyətin ilk mərhələsinin son hissəsini müşahidə edəcəkdir.

Bununla əlaqədar Sputnik Ermənistan şərh üçün ölkənin müdafiə şöbəsinə müraciət edib. Nazirin mətbuat katibi Şuşan Stepanyan Müdafiə Nazirliyinin təlimlərin müddəti və döyüş hazırlığının tərkib hissəsinə əlavə olaraq, hərbi-diplomatik və hərbi-siyasi mesajların yer aldığına narahat olduğunu bildirib. Həmçinin vurğulayıb ki, təlimlərdə Türkiyə hərbi rəhbərliyinin olması barədə məlumatlar bu hərbi-siyasi mesajların görünməmişliyi baxımından narahatlığı daha da artırır.

***İnam Hacıyev***

# Xalqın dövlət başçısına inam və rəğbəti tükənməzdir

***Hər bir dövlət xadiminin, tarixi şəxsiyyətin real gücü, qüdrəti tarixin ən ağır, ən çətin dönəmlərində üzə çıxır. Azərbaycan xalqı həqiqətən xoşbəxt xalqlardandır ki, indiki son dərəcə narahat, taleyüklü bir dönəmdə ölkəmizə Prezident İlham Əliyev kimi müdrik siyasətçi, görkəmli dövlət xadimi rəhbərlik edir. İndi dünyanın bir çox böyük dövlətlərinin belə koronavirus pandemiyasının ağır fəsadları qarşısında zəif, naəlac qaldığı bir məqamda, Azərbaycanda Prezident İlham Əliyevin müdrik liderliyi ilə bu təhlükənin önlənməsi, əhalinin sağlamlığının qorunması üçün ardıcıl, düşünülmüş addımlar atılıb. Nəticə göz qabağındadır.***

Bu gün Azərbaycan xalqı və dövləti, bəlkə də, son yüzilin ən ağır sınağından uğurla, zəfərlə çıxmaq üzrədir. Təhlükənin ilk anından "Biz birlikdə güclüyük" deyə bəyan edən və dövlətin bütün resurslarını səfərbər etməyi bacaran cənab Prezidentin tarixi xidmətləri nə qədirbilən xalqımız unudacaq, nə də əlahəzrət zaman. Çünki son 17 il ərzində Prezidentimiz ölkəmizi uca zirvələrə yüksəltməkdədir. Xalqı ona görə Prezidentini sevir ki, O, heç bir vaxt hər hansı böyük dövlət və ya beynəlxalq təşkilatın diqtəsi ilə hərəkət etmir, Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, güclü ordusunda və uğurlu xarici siyasətində öz təsdiqini tapır. 2018-ci il 11 aprel prezident seçkilərindən sonra bəyan etdiyi və tətbiqinə başladığı genişmiqyaslı və hərtərəfli islahatlar kursu sayəsində Azərbaycanın siması büsbütün dəyişməkdədir. Dövlət başçısının rəhbərliyi altında atılan irimiqyaslı adımlar xalqımız tərəfindən yüksək qiymətləndirilir və alqışlanır. Təsadüfi deyildir ki, hər gün minlərlə soydaşımız Prezidentimizin ünvanına yüzlələr minnətdarlıq məktubları göndərir və bu məktublarda ümumi bəlaya çevrilmiş pandemiyaya qarşı mübarizədə dövlət başçısının qətiyyətinə, tələbkarlığına, humanizminə, xeyirxahlığına, qayğısına və şəfqətinə heyran qaldıqlarına dilə gətirir, öz rəhbərləri ilə fəxr və qürur hissi keçirdiklərini vurğulayırlar. Xalqının qürür mənbəyinə çevrilmiş Prezident İlham Əliyev isə bəyan edir ki, bütün imkan, potensial və resurslarımızdan istifadə edib bu çətin sınaqdan da şərəflə çıxacağıq. Hal-hazırda karantin rejiminin müddətini pandemiyanın hələ də mövcudluğu şəraitində uzatsaq da, eyni zamanda, mərhələli şəkildə sosial təcrid siyasətinin yumşaldılması istiqamətində də addımlar atmaq niyyətindəyik. Əsas olan odur ki, həmrəyliyimiz və birliyimiz heç zaman olmadığı qədər ən yüksək səviyyədədir.

### Xalqının çətin anlarının Prezident

Bəli, Prezident İlham Əliyev 2003-cü ildə prezident seçilərkən Azərbaycan həlli müşkül görünən bir sıra problemlərlə üz-üzə idi. O vaxt ölkə hələ yeni-yeni dirçəlirdi, işsizlik, məcburi köçkünlərin acınacaqlı halı, bölgələrin inkişafdan geri qalması, əhalinin sosial vəziyyəti ciddi narahatlıq doğururdu. Prezidentin ilk vədi bu oldu: "Ölkədə yüz minlərlə yeni iş yeri yaradılacaq. Ötən illər ərzində 2 milyona yaxın iş yeri yaradıldı. İşsizlik səviyyəsi 40 faizdən 5 faizə endi. Bir dənə də olsun çadır düşərgəsi qalmayacağını demişdi. Çox keçmədən axırıncı çadır düşərgəsi ləğv olundu, qaçqın və məcburi köçkünlər üçün respublikanın 30-dan artıq şəhər və rayonunda bütün sosial-texniki infrastruktura malik 102 müasir qəsəbə salınıb, 5800 köçkün ailəsi üçün fərdi evlər, mənzillər tikilib və təqdim olunub, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 620-dən çox mənzil verilib...".

"Bizim üçün əsas məsələ vətəndaşların sağlamlığı, insanlarımızın həyatıdır"

Planetimizə qara bulud kimi çökən koronavirus pandemiyasının dünyanın ən inkişaf etmiş ölkələrində hər gün minlərlə can aldığından, minlərlə insanın sağlamlığını təhdid etdiyindən mətbuat, kütləvi informasiya vasitələri, sosial şəbəkələr vasitəsi ilə hər gün yeni məlumatlar əldə edildiyi bir zamanda və hazırda dünyada baş verən hadisələri təhlil etdikdə, bir daha Azərbaycan kimi ölkədə yaşamağımızdan qürur duyuruq. Fəxr edirik ki, ilk gündən vəziyyəti nəzarətə götürən, qətiyyətli iradəsi, təşəbbüskarlığı ilə koronavirusun ölkəmizdə sürətlə yayılmasının qarşısı almağı bacaran dövlət başçımız var. Bu gəlişi gözəl deyilən sözlər deyil, bu son dərəcə narahat, taleyüklü bir dönəmdə ölkəmizə rəhbərlik edən Prezident İlham Əliyev kimi müdrik siyasətçi, görkəmli dövlət xadiminin apardığı uğurlu siyasətinin gerçəklikləridir. Nəticə göz qabağındadır. Bu gün Azərbaycan xalqı və dövləti, bəlkə də, son yüzilin ən ağır sınağından uğurla, zəfərlə çıxmaq üzrədir. Təhlükənin ilk anından "Biz birlikdə güclüyük" deyə bəyan edən və dövlətin bütün resurslarını səfərbər etməyi bacaran cənab Prezidentin tarixi xidmətləridir, xalqına qayğısıdır. Xüsusilə də, koronavirusa qarşı mübarizə tədbirlərinə başlanıldığı ilk gündən Prezident İlham Əliyev ölkə vətəndaşların sağlamlığının qorunmasını, koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsini bir nömrəli vəzifə kimi qarşıya qoydu, bütün diqqəti bu sahəyə yönəltdi. Əhalinin sağlamlığının qorunması və ilə bağlı tədbirlər haqqında Fərman imzalandı, Nazirlər Kabineti yanında Operativ Qərargah fəaliyyətə başladı, zəruri tibbi avadanlıqlar alındı, koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar müasir tibb müəssisələri ayrıldı, karantin zonaları yaradıldı. Prezidentin, Birinci vitse-prezidentin bir illik əməkhaqlarını, ardınca bir çox qurumların, özəl şirkətlərin və ayrı-ayrı şəxslərin koronavirus infeksiyasına qarşı preventiv addımların atılması üçün yaradılan Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələr bağışlaması dövlətin və xalqın həmrəyliyinin, birliyinin daha bir bariz göstəricisi oldu. Eyni zamanda, Prezident İlham Əliyevin və Mehriban Əliyevanın dünyanı cənginə alan virusun ölkəmizdə yayılmasının qarşısının alınması sahəsində vaxtında həssas münasibət göstərmələri, ölkə vətəndaşlarına müraciətləri xalqın pandemiya ilə mübarizəyə səfərbərliyi üçün böyük stimul oldu. Lakin bütün bu uğurları görə bilməyən xalqa düşmən qüvvələr isə həmişə olduğu kimi, bu dəfə də koronavirusdan yararlanmağa başlayıb.

### "Əgər kimsə xalqımıza, dövlətimizə düşmənçilik edirsə, onun bir adı var - düşmən. Hər kəs bunları belə də çağırmalıdır"

Dövlət başçısı koronavirus başlayandan radikal müxalifətin çirkin niyyətinə də aydınlıq gətirərək, onları xalqa düşmən qüvvə adlandırıb: "Bu düşərgədə cəmləşən insanlar uzun illərdir iqtidara qarşı yox, dövlətimizə, xalqımıza qarşı çirkin mübarizə aparırlar. Onların əsas məqsədi vəziyyəti gərginləşdirməkdir. Ölkəmiz üçün, xalqımız üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır. Onların fəaliyyətinin tarixi də bunu göstərir. Biz bu tarixi yaddan çıxarmamışıq...".



**ZƏRİFƏ QULİYEVA,**
**Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının İdarə Heyətinin üzvü, YAP Nəsimi rayon təşkilatı idarə heyətinin üzvü, "Modern ailə və inkişaf " İctimai Birliyinin sədri.**

Prezident çıxışlarında dəfələrlə bildirib ki, həmin radikal müxalifət üçün koronavirus "göydəndüşmə bir hədiyyə" olub: "Koronavirus bunlar üçün sanki, göydəndüşmə bir hədiyyədir. Bu gün koronavirusa sevinən ancaq bu antimilli qruplaşmadır. Mən təbii ki, baş verən hadisələrdən xəbərdaram və bilirəm ki, bunların bu çirkin niyyətləri dəhşətli bir mənzərə yaradır. Ölənlərin sayının artmasını arzulayırlar, xəstələrin sayının artmasını istəyirlər, sevinirlər ki, insanlar vəfat edir. Yəni, bu, iqtidara qarşı deyil, dövlətə qarşı düşmənçilikdir. Mən hər şeyi öz adı ilə çağırıram. Əgər kimsə xalqımıza, dövlətimizə qarşı çıxırsa, onun bir adı var - düşmənçilik. Hər kəs bunları belə də çağırmalıdır. Bunların indiki arzuları da gözlərində qalacaq. Sözüm onda deyil, sözüm ondadır ki, siyasi islahatlar bu gün tam yeni bir konfiqurasiya yaradır. Əminəm ki, marginal qruplaşmaya yeni konfiqurasiyada yer yoxdur və olmamalıdır. Azərbaycan xalqı onları 27 il bundan əvvəl tarixin zibilxanasına atıbdır".

### Düşünülmüş siyasət - uğurlu nəticələr

Bəli, hər bir çətin anlarda ölkə Prezidenti İlham Əliyevin düşünülmüş və zamanında atdığı uğurlu addım sonda müsbət nəticəsini verir. Məhz bu gün dövlət başçımızın uğurlu və düşünülmüş siyasətinin nəticəsidir ki, ölkəmiz vəziyyətdən az itkilərlə çıxa bilir.

Avqustun 6-da koronavirusla mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı keçirilən müşavirədə dövlət başçımız bildirdi ki, koronavirus xəstəliyi bundan sonra da nəzarət altında saxlanılacaq. Dövlət başçısınının qeyd etdiyi kimi, artıq üç həftədir ki, müsbət dinamika müşahidə edilir. Bütövlükdə isə, pandemiya başlayandan dərhal sonra dövlət tərəfindən bütün lazımi qabaqlayıcı tədbirlər həyata keçirilməyə başlandı. Bunun nəticəsində ölkəmiz vəziyyətdən az itkilərlə çıxa bilir. Cənab Prezident müşavirədə bir daha söylədi ki, əsas məqsədimiz insanların sağlamlığıdır. Ondan sonra əhəmiyyət baxımından bizim iqtisadi vəziyyətimiz, iqtisadi inkişafımız, iqtisadiyyatın dayanıqlılığı və biznes dairələrinə göstərilən dəstək, postpandemiya dövrünə hazırlıq gəlir. Dövlət başçısı diqqətə çatdırdı ki, koronavirusla bağlı mübarizədə addımlar vəziyyətə uyğun şəkildə atılacaq. Karantin vəziyyəti hamını yorsa da, pandemiyanın fəsadları nəzərə alınmalıdır. Nəzərə alsaq ki, dövlət rəhbərliyi, Operativ Qərargah insanların sağlamlığı və təhlükəsizliyi üçün fasiləsiz işləyir, vətəndaşlar da vəziyyətin ciddiliyini nəzərə almalıdır. Dövlət başçısı diqqətə çatdırıb ki, karantin rejimi nə vaxt mümkünsə yumşaldılacaq, necə ki, artıq ayın 5-dən yumşalma olub. Vətəndaşlar nəzərə almalıdır ki, əgər bu yumşalmadan sonra yenə də xəstəlik kəskin artsa, karantin rejimi yenə də sərtləşdiriləcək. Ona görə də, hamı məsuliyyətli olmalı, qaydalara əməl etməli, tibbi maskalardan, dezinfeksiyaedici vasitələrdən istifadə etməli, sosial məsafəni gözləməlidir. belə olarsa, karantin rejimini daha da yumşaldıb normal həyata tez qayıtmaq mümkün ola bilər.

Onu da vurğulamaq istərdim ki, pandemiya şəraitində sosial və iqtisadi məsələlərin həlli istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Ölkəmizdə iqtisadi və sosial məsələlər də öz həllini tapır. Bu dövrdə 5 milyona yaxın insan geniş sosial paketlə əhatə edildi, dövlət sektorunda çalışan 900 min insanın böyük əksəriyyəti faktiki olaraq işləməsə də, dövlət tərəfindən əməkhaqqı alır. 760 min sahibkara lazımi maliyyə dəstəyi göstərildi və onların iş yerləri qorundu. Bundan əlavə, 600 min işsiz insan, o cümlədən qeyri-formal məşğulluqda fəaliyyət göstərən və müvəqqəti olaraq öz işini itirən, aztəminatlı təbəqəyə aid olan insan dövlət tərəfindən qayğı ilə əhatə olunub. Onlara 190 manat həcmində müavinətin verilməsi buna sübutdur. Həmçinin, müşavirədə ölkə Prezidenti vurğuladı ki, sosial dəstək bundan sonra da davam etdirilməlidir. Hazırda Azərbaycanın 13 şəhər və rayonunda sərt karantin rejimi tətbiq edilir. Həmin rayonların bu kateqoriyaya aid insanları bu dəstəklə bundan sonra da əhatə olunmalıdır. Avqust ayında da onlara 190 manat ödəniləcək.

### "Bəlkə də dünyada öz vətəndaşına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur"

Bəli, dövlət başçısı çıxışlarında dəfələrlə bu cavabı verib. Və ölkə başçısının bu cavabı Azərbaycan dövlətinin sosial siyasətinin fəlsəfəsi, iqtisadi inkişafın nəticələrinin əhalinin rifah halının yüksəldilməsinə yönəldilən real sübutudur. Bu prinsip hər gün daha geniş şəkildə davam etdirilir. Bugün ölkə Prezidentinin həyata keçirdiyi uğurlu sosial siyasəti bunu sübutudur. Və bir daha dönə-dönə bildirmək istəyirəm ki, bu gün bu uğurlu siyasətə qara yaxmağa çalışan, yalan və manipuliyasiyalarla insanların fikirlərini dəyişdirməyə can atan məkrli xarici qüvvələri və nüfuzdan düşmüş radikal müxalifətin anti-Azərbaycan təbliğatı mənasız və əsassızdır. Çünki bütün reallıqları xalqımız görür və öz Prezidentinə inanıa və Onun yanındadır. Məhz buna görə son günlərdə dövlət başçısına gələn təşəkkür məktublarının sayı-hesabı yoxdur. Prezidentin saytında oxuya biləcəyimiz məktublarda insanlar böyük səmimiyyətlə və ürəkdən gələn sözlərlə dövlətin həqiqətən xalqla birlikdə olduğunu deyir, "Biz birlikdə güclüyük!" şüarının sadəcə bir söz olmadığını ifadə edirlər. Əslində hər zaman cənab İlham Əliyevin bütün düşüncələri, qərarları və addımları vətəndaşın rifahına yönəlmişdi. Xüsusi dövrdə isə belə olduğu xüsusilə hiss edilir. Bütün bunlar bir daha onu təsdiqləyir ki, xalqımız möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında bundan sonra daha böyük nailiyyətlərə imza atacaqdır. Çünki Azərbaycan Prezidentinin fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulmuşdur. Əminliklə demək olar ki, Azərbaycan xalqını uğurlu gələcəyə aparan bu siyasət növbəti illərdə də davam etdiriləcək, respublikamız Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayacaq və dövlət başçımızın dediyi kimi - "Əminəm ki, dövlətimiz və xalqımız bu sınaqdan da üzüağ çıxacaq".

# "Milli Şura"nın qeybət şousu: şüursuzlar, cütdırnaqlı sevgisi və təlxək obrazı

**AXCP və "Milli Şura"nın "zoom" toplantısı fonundakı qeybətxana serialları necə deyərlər, "tam sürətlə" davam edir və davam etdikcə də, oradakı başıpozuqlar yığnağının nə qədər "şüura" malik olduqları daha çox ortaya çıxmağa başlayır. Söz yox ki, yenə də xalqı ələ salmaq, təhqir etmək kimi məsələlərlə yanaşı, "məzlum və əzabkeş" Əli Kərimlinin "blokada" tamaşasının yeni pərdəsi, Gültəkin Hacıbəylinin tənha qadın obrazındakı şəhvət çağırışlı çığlıqları, Rahim Hacıyevin təlxək obrazının qabardılması və Vidadi Mirkamal tərəfindən kəlləsini hədəfə alması, eləcə də cəbhəçi trolların bəh-bəhlə tərif atına mindirilmə səhnələri üzə çıxıb.**

Vahid Məhərrəmliyə gəlincə isə, guya Ə.Kərimlinin "blokadada" olması yalanı elə onun özü tərəfindəncə ifşa edildi. Baxın, o qeybət şousu zamanı deyib: "Əli bəylə əlaqə saxladım, vəziyyəti yaxşıdı, deyir istirahət eləyirəm, ümid edir ki, biz sosial şəbəkələrdə komanda kimi daha yaxşı işləyəcəyik. Sağ olun ki, siz də, cəbhəçilər də Əli Kərimlinin müsahibələrindən, sözlərindən kəsib ayrıca statuslar yazdız, plakatlar təşkil olundu. İndi orda kimin statusuna nə qədər layk gəldi, gəlmədi bu, elə də əhəmiyyətli deyil, əsas odu yazdıq" (?!-R.N.) Sual olunur ki, əgər Ə.Kərimlinin interneti yoxdursa, o sosial şəbəkələrə daxil olmaq imkanına malik deyilsə, əcəba onun işini aparanların fəaliyyətlərini haradan izləyir???



### Cəmil Həsənliyə sərf edən yalnız və yalnız Azərbaycan xalqına növbəti təhqirləri ünvanlamaq idi ki, bunu da etdi

Təkcə V.Mirkamalın C.Həsənliyə ABŞ-dakı karantinə riayət məsələsində verdiyi sualına ikincinin cavabı bütövlükdə Azərbaycan xalqına təhqir hədəfinə çevrilib. O öz sərsəm cavabında deyib ki, demə amerikalılar azərbaycanlılardan şüurludurlar (?!-R.N.) Ancaq maraqlıdır ki, C.Həsənli irqçilik kimi məsələlərdə Amerikada bu gün də davam edən irqçilik xaosu haqqında bir kəlmə də olsa danışmadı, üstəlik, qarşıdurmalar zamanı insanların kütləvi şəkildə karantin qaydalarını pozduqları haqda fikir bildirmədi. Çünki bu, ona sərf etmirdi, ona sərf edən yalnız və yalnız Azərbaycan xalqına növbəti təhqirləri ünvanlamaq idi ki, bunu da etdi!

### Vahid Məhərrəmli Əli Kərimlini ifşa etdi

### Tənha Gültəkin Hacıbəylini cütdurnaqlılar fəsiləsi maraqlandırır...

Sonda isə gələk serialın "baş qəhrəmanlarından" birinə - Gültəkin Hacəbəyliyə. Nədənsə bu xaınmçanın şəhvət və ehtirası bitib-tükənmək bilmir və hətta o qədər çoxdur ki, onu insanlar deyil, öküzlər, inəklər, bir sözlə, cütdırnaqlılar fəsiləsi maraqlandırmağa başlayıb. Belə gedərsə, G.Hacıbəylinin tənhalıq dərdi daha betər olaylara qədər inkişaf edə bilər. Məsələn, cütdırnaqlılardan sonra keçər təkdırnaqlılara. Yəni bu xanımçadan, əslində hər nə "yenilik" desək, gözləməyə dəyər.

Lakin AXCP -"Milli Şura" cütlüyünün bu kimi qeybətxana şousu xarakterli seriallarından təəccüb etməyə də dəyməz. Hətta deyərdik ki, bu serialın davamı da gəlsin. Çünki davamı olduqca, onlardan fərqli olaraq, ictimai rəyin şüurlu kəsimi bu ünsürlər haqqında daha çox şokedici bilgilərə sahib olur...

*Rövşən NURƏDDİNOĞLU*

# Vüqar Rəhimzadə: "Ümidverici rəqəmlər fonunda səhlənkarlığa imkan verməməliyik"

***"Operativ Qərargahın avqustun 5-dən karantin rejiminin yumşaldılması ilə bağlı qərarını şərtləndirən əsas amil koronavirus epidemiyasının geniş yayılmasının qarşısının alınması üzrə 21 iyun 2020-ci il tarixindən etibarən tətbiq olunan sərtləşdirilmiş tədbirlər nəticəsində sanitar-epidemioloji vəziyyətdə müşahidə olunan stabilləşmə oldu.***



Həmin müddətdə gündəlik statistik rəqəmlər yoluxanların sayında azalmanı, müalicə olunub əvvəlki həyatlarına qayıdanların sayında isə artımı təsdiqlədi. Bu yumşalmaların, xüsusilə SMS icazənin ləğvinin, çimərliklərin fəliyyətinin bərpasının müsbət dinamikanın davam etdirilməsinə nə kimi təsir göstərəcəyi hazırda günümüzün əsas müzakirə mövzuları sırasındadır. Bu baxımdan ki, ötən dəfə bəzi insanların yumşalmanı koronavirusun yoxa çıxması kimi qəbul etməsi müsbət dinamikanın zəifləməsinə, yəni yoluxanların sayının artmasına səbəb oldu. Məhz arxayınlaşmanın yaratdığı fəsadlar karantin rejiminin növbəti dəfə sərtləşdirilməsini, cərimələrin tətbiqini zərurətə çevirdi. Pandemiyaya qarşı mübarizə tədbirlərinə başlandığı gündən Azərbaycanın tətbiq etdiyi təcrübə beynəlxalq səviyyədə təqdir olundu. Ölkəmiz bu mübarizədə özünütəcridi əsas amil kimi önə çəkərək vətəndaş məsuliyyətinin artırılmasını bir tələb kimi qarşıya qoydu. Dövlətimizin uğurlu addımları ilk gündən bu proqnozu səsləndirməyə əsas verdi ki, Azərbaycan hər bir ölkə üçün sınaq kimi dəyərləndirilən koronavirusdan sonadək az itki ilə çıxacaq, postpandemiya dövründə yeni iqtisadi model tətbiq ediləcək, iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsi nəticəsində yaranmış çətinliklər qısa zamanda aradan qalxacaq, əhalinin sosial müdafiəsinin gücləndirilməsi öz prioritetliyini qoruyacaq". Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, koronavirusa yoluxmanın azaldılması, ümumiyyətlə, xəstəliyin coğrafiyasının genişlənməməsi üçün tətbiq olunan qaydalar o qədər də çətin deyil- Məsafə saxlamaq, qoruyucu vasitələrdən istifadə etmək, tez-tez əlləri yumaq. Sağlamlığımızı qorumaq istəyiriksə, bu tələblərə yüksək səviyyədə əməl etməliyik: "Sevindirici haldır ki, artıq son günlər yoluxanların sayında azalmalar davamlı xarakter alıb. Sayın ikirəqəmli ədədlə ifadə olunması yenə də arxayınlıq yaratmamalı, tələb olunan qaydalar arasında sosial məsafənin gözlənilməsini önə çəkməlidir. Bu baxımdan ki, hazırda çimərlik mövsümüdür, insanların bu ərazilərdə daha çoxluq təşkil edir. Mövcud sıxlıq həyacan təbilinin çalınmasına rəvac verməyə bilməz".

"Dövlətimizin başçısı İlham Əliyevin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın koronavirus infeksiyası ilə bağlı xalqa müraciətlərində də daim bu inam ifadə edilir ki, COVID-19 adlı qorxulu hekayənin geridə qalacağı gün gələcək" söyləyən baş redaktor bildirib ki, məsuliyyət hissini artırmaqla, nizam-intizam qaydalarına yüksək səviyyədə əməl etməklə koronavirusa qalib gəlmək, xoş əhval-ruhiyyə ilə əvvəlki həyata qayıtmaq mümkündür: "Cənab İlham Əliyevin qeyd etdiyi kimi, karantin rejimi hamını yorub. Çünki bu, elə bir bəla, elə bir xəstəlikdir ki, hələ çarəsi yoxdur. Ona görə yeganə yol insanları qorumaq, yoluxmaların sayını azaltmaq, xəstəliyin geniş vüsət almasına yol verməmək və beləliklə, vətəndaşları, dövlətimizi bu vəziyyətdən xilas etməkdir. Möhtərəm Prezidentimiz bir daha Azərbaycan vətəndaşlarına müraciət etdi: Məsuliyyətli olun".

V.Rəhimzadə qeyd edib ki, mübarizə tədbirlərinin öz müsbət nəticəsini verməsi üçün hər bir vətəndaşdan öz borcunu layiqincə yerinə yetirmək tələb olunmaqla yanaşı, məsuliyyəti daha çox çiyinlərində hiss edən peşə sahiblərinə dəstək olmaq da əsas çağırışlardandır: "Bu günlər həkimlərdən insanların sağlamlığının keşiyində daha ayıq-sayıq dayanmaq, ictimai asayişin keşikçiləri olan polislərimizdən karantin qaydalarına vətəndaşların daha yüksək səviyyədə və ciddi şəkildə riayət etmələrinə nəzarəti gücləndirmək, cəmiyyətimizin gözgüsü olan mətbuatdan obyektivlik, qərəzsizlik, vətənpərvərlik kimi prinsipləri qorumaq əsasında maarifləndirmə işinə böyük töhfələr vermək tələb edilirsə, hər bir vətəndaşa da məsuliyyətini artırmağa, nizam-intizam qaydalarına riayət etməyə çağırışlar edilməlidir. Kompleks tədbirlərin həyata keçirilməsi fonunda həm sağlamlığımızı təmin edər, həm də koronavirusun iqtisadiyyata vurduğu ziyanları aradan qaldırmaq üçün yeni inkişaf modelini tətbiq etməklə uğurlu nəticələrə nail ola bilərik. İlk gündən ölkəmizdə heç bir sosial layihənin təxirə salınmaması, insanların rahatlığının təmin edilməsi üçün biri-birindən önəmli addımların atılması diqqətdən kənarda qalmadı. Bu, Azərbaycanın möhkəm iqtisadi bazaya malik olmasının, ən əsası, iqtisadiyyatını düzgün əsaslar üzərində qurmasının göstəricisidir. Hər bir çətinlikdən uğurla çıxan Azərbaycanın COVID-19-a da qalib gələcəyi barədə səslənən fikirlər dövlətimizin uğurlu siyasətinə, ən əsası insan amilinə yüksək dəyər verməsinə əsaslanır".

# "Sərnişindaşımanın bərpası Operativ Qərargahın qərarından sonra bəlli olacaq"

Şəhərlərarası və rayonlararası sərnişindaşımanın bərpası yalnız Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarından sonra bəlli olacaq. Bu barədə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) İctimaiyyətlə əlaqələr sektorunun müdiri Nuridə Allahyarova bildirib.

Onun sözlərinə görə, ölkə üzrə avtovağzallara artıq təlimatlar verilib və sərnişindaşıma ilə bağlı qərar verildiyi gündən tam gücü ilə işə başlaya biləcəklər: "Hazırda bununla bağlı nəsə demək tezdir, belə ki, bir qurum olaraq



Operativ Qərargahın tapşırığını gözləyirik. Ona görə bu barədə ilk açıqlama yalnız Operativ Qərargah tərəfindən olacaq. Mən də öz növbəmdə media qurumlarından xahiş edirəm ki, bu məsələ ilə bağlı digər qurumlardan sorğu almasınlar, hər hansısa xəbər insanlarda çaşqınlıq yarada bilər. Avtobusların bölgələrə işləməsi ilə bağlı sorğu yalnız Nazirlər Kabinetinə ünvanlanmalıdır".

Xatırladaq ki, koronavirus infeksiyasının yayılması hallarının qarşısını almaq məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qəbul edilmiş qərara əsasən martın 19-da saat 00.00-dan etibarən xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla respublikanın şəhər və rayonlarında qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna buraxılması dayandırılıb.

# Azərbaycanda 93 nəfər koronavirusa yoluxdu, 202 nəfər sağaldı

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 93 yeni yoluxma faktı qeydə alınıb, 202 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan XəzərXəbər-ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.




İndiyədək ölkədə ümumilikdə 33 824 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 31 058 nəfər müalicə olunaraq sağalıb, 497 nəfər vəfat edib, aktiv xəstə sayı 2 269 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 8 054, ötən müddət ərzində isə ümumilikdə 804 513 test aparılıb.

# Terrorçu dövlət, işğalç



edir. Nikol Paşinyanın Dağlıq Qarabağdakı terrorçu-separatçıların da müzakirələrdə müstəqil tərəf kimi iştirak etmələri məsələsini gündəmə gətirməsi ilə bir sıra çətinliklər meydana çıxmışdı. Ancaq Azərbaycan rəhbərliyinin prinsipial və qətiyyətli, beynəlxalq hüquq normalarına və beynəlxalq təşkilatların sənədlərinə əsaslanan mövqeyi sayəsində Ermənistanın bu süni hoqqası da baş tutmadı. Belə ki, nə edirsən et, reallıq budur: təcavüzkar zəbt etdiyi torpaqlardan getməlidir, vəssalam!

### Süni yaranan Ermənistanın siyasəti də süni faktorlara söykənir

Bu, real faktordur. Ermənistan necə süni yaradılıbsa, onun siyasəti də süni faktorlara dayanır. Əslində, burada qeyri-adi bir şey də yoxdur. Əvvəlki liderlər kimi, N.Paşinyan da savadsız düşüncəyə malikdir. Guya Er-

Bəli, bu həqiqətən də belədir. Ermənilər özləri də bilirlər ki, nə xalq olublar, nə dövlət, ikiüzlü, satqın, insanlıqdan uzaq riyakar. Erməni tarixinin atası sayılan MOVSES XORENASİ hələ 5-ci əsrdə öz qəbilədaşları haqqında deyirdi: "Mən xalqımızın daşürəkliliyini və yekəxanalığını göstərmək istəyirəm. Ermənilər həqiqəti inkar etməyi xoşlayırlar. Onlar böyük-böyük danışmağı sevən, ikiüzlü, satqın, insanlıqdan uzaq riyakar olublar".

PETRONİY QAY AMATUNİ isə, erməniləri dörd ayaqlı heyvan sayıb.

Karl MARKS isə yazmışdı: "Öz arvadlarını yaşamaq və qazanc xatirinə başqa xalqların kişilərinə satan ilk millət erməni milləti olmuşdur". Deməli, bu gün erməni xalqı kimi ən alçaq, ən satqın, ən mənəviyyatsız, əxlaqsız və nəhayət, quduzlaşmış işğalçı dövlət olublar.






### Nikolun quduzluğunun sonu

Hakimiyyətə gəldiyi ilk gündən işğalçı ölkənin baş naziri Nikol Paşinyan verdiyi vədləri elə vədlər olaraq qalıb. Necə deyərlər ziddiyyətlər məngənəsində sıxılan Nikolun röyası elə röya olaraq qalmaqdadır. Bu iki ildən çoxdur ki, erməni xalqı nə bir xoş gün gördü, nə sosial problemləri həll olundu, nə də firavan həyat keçirdilər. Bu isə xalq ilə Paşinyan arasında ziddiyyətlərin daha pik nöqtəsinə gətirib çıxarıb. Necə deyərlər Paşinyan başını itirib. Xüsusilə də son günlər quduzlaşmış Ermənistanın Azərbaycana qarşı təxribatlar törətməsi, nəticədə güclü Azərbaycan Ordusunun və əzmkar oğullarımızın rəşadət və əzmkarlığı nəticəsində işğalçı ölkə böyük itkilər verməklə məğlubiyyətə uğuradı.

Göründüyü kimi, Paşinyanın arzuları puç oldu. Ən gülünc məqam isə, erməni cəmiyyəti həmin bu sərsəm küçə "demokratını" hakimiyyət gətirərkən müəyyən real dəyişikliklərə ümid edirdi. Proseslər günbəgün göstərir ki, onlar yenə yanıldılar. Paşinyan isə təxribatlar törətiəklə elə zənn etdi ki, əməllərini ört-basdır edəcək. Ancaq sən Nikol saydığını say, gör Azərbaycan nə sayır. Bir sıra ekspertlər Ermənistanın işğal etdiyi Azərbaycan ərazisini tərk etməsindən başqa yolun olmadığını açıq vurğulasalar da, Paşinyan təxribatlara əl atmaqla ölkədə baş verən daxili vəziyyəti ört-basdır etməyi ən real çı-




xış yolu hesab edir. Və bu sadə həqiqəti dərk etməyə erməni siyasi şüuru qabil deyil.

### Faktların təhrifi: ...yalanların zavallı durumu və reallıqlar...

Qeyd edək ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həll edilməsi perspektivi ilə bağlı ekspertlərin analizləri bu gün də davam

mənistan küçə hərəkatı ilə siyasi, mənəvi, ideoloji, diplomatik və mədəni simasını qəfil dəyişib. Ekspertlərin sözlərinə görə, son illərə kimi, Rusiyanın vassalı olan kütlə birdən demokratiyanın və sivilizasiyanın aparıcı mövqeyinə çıxıb. Deməli, ekspert dairələrinin də dəridən-qabıqdan çıxaraq, Paşinyan hakimiyyətini tərif etmələri reallıqda Ermənistanın yeni vassal olmaq xəttini təbliğ etməkdən başqa bir şey deyildir.

### Belə olduğu halda nə istəyir: sülh, yoxsa müharibə?

Deməli, dahilərin dediyi kimi, min bir dona girən Nikol Paşinyan Qarabağ münaqişəsinə dair mövqeyinin ondan əvvəlki hakimiyyətlərin yürütdüyü siyasətlə müqayisə edilməsini istəmir. Erməni politoloqları da bildirirlər ki, ölkədə yaranmış kritik vəziyyətə səbəb Paşinyanı sərsəm danışmağa sövq edir. Ümumiyyətlə, real vəziyyəti təhlil edən ekspertlərin, demək olar, hamısının mövqeyi bundan ibarətdir ki, Ermənistanın bir dövlət olaraq mövcudluğu və gələcəyi Dağlıq Qarabağ amilindən asılıdır. Azərbaycan torpaqlarını işğal altında saxlayıb, qonşu dövlətlərə ərazi iddiası irəli sürmək isə erməni dövlətinin gələcəyini təhlükəyə salır. Bu baxımdan, Ermənistanda vəziyyətin düzəlməsinin əsas şərtlərindən biri və ən başlıcası Yerevanın öz qoşunlarını Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarmasıdır. Çünki bu dövlətin gələcəyi Azərbaycanla qonşuluq prinsiplərinə əməl etməkdən keçir.

### "Dağlıq Qarabağ heç vaxt Azərbaycanın suverenliyindən kənarda heç bir status almayacaq"

# ı siyasət və ac xalq...

Azərbaycan Prezidenti çıxışlarında dəfələrlə bildirib ki, xarici siyasətimizdə ərazi bütövlüyümüzün təmin edilməsi prioritet istiqamətdir. Və münaqişəsinin yalnız beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə nizama salınmasının vacibliyini bildirib və beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan edib: "Heç vaxt Azərbaycan xalqı və dövləti imkan verməyəcək ki, onun əzəli, tarixi və hüquqi torpağı ondan ayrılsın. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir. Azərbaycan bütün dünya tərəfindən tanınan öz ərazi bütövlüyünü bərpa edəcək".



Qeyd edək ki, dövlət başçısı dəfələrlə xəbərdarlığını edib və bildirib ki, bu şəraitdə Paşinyan hökuməti cəbhə təxribatlarına getməkdə davam edərsə, onda Azərbaycan daha sərt tədbirlər görməli olacaq. Bir məqamı dönə-dönə vurğulamaq lazımdır ki, tarixi aprel qələbələrindən sonra Ermənistan hökumətindən fərqli olaraq, bu ölkənin cəmiyyəti hadisələrin qeyd olunan səpkidə inkişafından ciddi narahatdır. Xüsusilə, əsgər analarının narahatlığı və növbəti dəfə aprel döyüşlərinin təkrarlanması qorxusu erməni cəmiyyətində Paşinyana qarşı yeni etirazlara rəvac verir. Çünki bütün erməni ictimaiyyəti Azərbaycan Ordusunun qüdrətinə yaxından bələddir.

Bir sözlə, acınacaqlı siyasi situasiya ilə üzləşən N.Paşinyan, necə deyərlər, Ermənistanı iflasdan-iflasa sürükləməkdədir. Nə qədər ki, Ermənistan Azərbayanın işğal altındakı torpaqlarını azad etməyəcək, bir o qədər ağır iqtisadi, siyasi mərhumiyyətlərə və məşəqqətlərə düçar olacaq.

Bir sözlə, Paşinyan ən optimal variantı tapa bilməsə, Ermənistan məhv olacaq. Artıq bü faktın gerçəkliyi göz önündədir... Ermənistanın baş naziri Nikol Paşinyanın koronavirus pandemiyası dövründə vətəndaşların sosial-iqtisadi problemlərini həll etməməsi və ölkədə xəstəliyin qarşısını ala bilməməsi onun hakimiyyətinə qarşı xalqın etimadını tükəndirib.

Bu səbəbləri uzun-uzadı araşdırmağa ehtiyac da yoxdur. Ekspertlərin sözlərinə görə, Ermənistanın bu vəziyyətə düşməsinin əsas səbəbkarı Serj Sarkisyan və onun davamçısı Paşinyandır və bu vəziyyətdən çıxış yolu məntiqə üstünlük verərək işğalçılıq siyasətindən imtina edib, Azərbaycan torpaqlarını azad etməkdir. Amma düşünüləsi deyil ki, Ermənistanın bu günkü hakimiyyəti belə bir məntiqi addım atıb xalqını üzləşdiyi uçurumdan xilas etsin. Çünki indiki Ermənistan hakimiyyəti faşist, kriminal rejimdir. Bu baş verməyəcəyi və proseslərin bu cür dava edəcəyi təqdirdə Ermənistan böyük addımlarla uçuruma doğru irəliləyir.

Erməni mediası, eyni zamanda Nikolun hakimiyyəti dövründə ölkənin hansı duruma düşməsindən bəhs edir. Ermənistanın "168.jam" nəşrində dərc olunan məqalədə isə qeyd olunub ki, Paşinyan hakimiyyətin qolları arasında tarazlıq və qarşılıqlı təmkin prinsiplərini yerləyeksan etməyi hədəfləyir və bunun üçün hər yola əl atır: "Bu, Paşinyanın fərdi hakimiyyət səlahiyyətlərinin bərqərar edilməsi istiqamətindəki atılan addımlarının bariz nümunəsidir, bu isə Ermənistana olduqca baha başa gələ bilər. Çünki beynəlxalq ictimaiyyət Ermənistanla bağlı hesabat və dəyərləndirmələrini daha da sərtləşdirəcək".

### Paşinyanın bu oyunlarının bədəli daha böyük olacaq

Şübhəsiz bu gün bütün bu oyunların qarşısında güclü Azərbaycan Ordusu durur. Məqamı gələndə Ordumuz öz sözünü deyəcək və Dağlıq Qarabağda Azərbaycan qanunları bərpa ediləcək.

Bəs, Ermənistanın yeni rəhbərliyinin düşdüyü labirintdən çıxış yolu varmı? Bəli, var. Bu yolu Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarının birində bildirir ki, Ermənistanın yeni rəhbərliyi əvvəlki rəhbərliyin səhvlərini təkrar etməməlidir, konstruktiv danışıqlar aparmalıdır, Azərbaycan torpaqlarını işğaldan azad etməlidir. Bəli, bu, Ermənistanın yeganə nicat yoludur. Paşinyan bunun əksini edərsə, Sarkisyanın yolu ilə getmiş olacaq. Sözün bütün mənalarında...

Bir sözlə, Paşinyan ən optimal variantı tapa bilməsə, Ermənistan məhv olacaq. Artıq bü faktın gerçəkliyi göz önündədir...

**A.SƏMƏDOVA**

# Bölgədəki seysmoloji gərginlik "Metsamor" AES-i real fəlakət mənbəyinə çevirib

İstismar müddəti çoxdan başa çatan, artıq qəzalı vəziyyətdə olduğu üçün dəfələrlə işi dayandırılan Ermənistanın "Metsamor" Atom Elektrik Stansiyasının (AES) regiona yaratdığı böyük təhlükə yenidən gündəmə gəlib. AZƏTAC xəbər verir ki, avqustun 12-də Türkiyə vaxtı ilə saat 2.29-da İğdırda baş verən Rixter cədvəli üzrə 4.4 bal gücündə zəlzələ qardaş Türkiyədə böyük təşviş yaradıb. Əhalini təşvişə salan bu yeraltı təkan haqlı olaraq belə bir sual yaradıb: "Bölgədə daha güclü zəlzələ baş versə "Metsamor" AES" region ölkələrinə nə vəd edir?" Nüfuzlu "Yeşil İğdır" qəzetinin baş redaktoru, tanınmış türkiyəli publisisti Cabbar Şıktaşın açıqlaması "Zəlzələdən yox, "Metsamor"dan qorxun!" sərlövhəsi ilə yayılıb. Baş redaktorun məsələ ilə bağlı fikir və mülahizələri həyəcan təbilidir. Müəllif yazır ki, Türkiyə ilə Ermənistan arasında diplomatik əlaqələrin olmaması bu problemin unudulmasına səbəb olmamalıdır. Burada böyük bir məsuliyyət var. Beynəlxalq hüquq və dünyada ekoloji təhlükəsizliyin qorunması şərtləri "Metsamor"un fəaliyyətinin dərhal dayandırılmasını tələb edir.



Yeşil Iğdır

DEPREMDEN DEĞİL, METZAMOR'DAN KORKTUK

Qeyd edək ki, Türkiyə Daxili İşlər Nazirliyinin nəzdindəki Fövqəladə Halların İdarə Olunması Agentliyinin (AFAD) məlumatına görə, avqustun 12-də İğdırda baş vermiş zəlzələ ətraf bölgələrdə də hiss olunub. Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi faktı təsdiqləyib. Bildirilir ki, ocağı 2 kilometr dərinlikdə yerləşən zəlzələ Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda 3 bala qədər hiss olunub. Bu zəlzələ "Metsamor"un yerləşdiyi ərazidə daha çox hiss olunub.

Təəssüf ki, Ermənistan hökuməti regiondakı qonşuları ilə daha şəffaf olmaq üçün siyasi niyyət və iradəsini nümayiş etdirmək, həmçinin AES-in təhlükəsizliyinə dair narahatlıqlarla bağlı daha açıq mövqe tutmaq əvəzinə bu məsələ ilə bağlı olduqca məsuliyyətsiz bir davranış sərgiləyir. Belə təəssürat yaranır ki, "Metsamor" Ermənistan hakimiyyətinin əlində şantaj vasitəsidir.

Azərbaycan tərəfi dəfələrlə "Metsamor" AES-in qlobal təhlükə mənbəyi olması barədə Atom Enerjisi üzrə Beynəlxalq Agentlik qarşısında (AEBA), eləcə də bəşəriyyətin nüvə təhlükəsizliyi ilə bağlı beynəlxalq konfranslarda və zirvə toplantılarında məsələ qaldırıb. Mütəxəssislər hesab edirlər ki, "Metsamor" məhz istismar müddəti bitdiyi və eləcə də olduqca köhnə avadanlıqlarla fəaliyyət göstərdiyi üçün atmosferi normadan dəfələrlə artıq çirkləndirir. Qonşu ölkələr radiasiyadan böyük zərər çəkir. Bundan başqa, Ermənistan tərəfi "Metsamor"un nüvə tullantılarını Azərbaycanın işğal olunmuş ərazilərində basdırır. Türkiyə Böyük Millət Məclisinin deputatları ötən il "Metsamor" AES-nin qonşu ölkələrə mənfi təsirinin araşdırılması ilə bağlı məsələ qaldırıblar. Bu problemin həlli məqsədilə konkret addımların atılması tələb olunub. Deputatlar "Metsamor" AES Çernobıl qədər təhlükəli olması qeyd ediblər. Qeyd edək ki, "Metsamor" AES 1976-cı ildə istismara buraxılıb və Türkiyənin Ermənistanla şərq sərhədindən 16 kilometr aralıda yerləşir. Son aylar Anadolunun mərkəzi seysmoloji xəttində gərginliyin artması "Metsamor"u real fəlakət mənbəyinə çevirib.

# "Ermənistandakı qəddarlığa yalnız Soyqırım və Holokost haqqında filmlərdə rast gəldim"



Ermənistanda müvəkkilə lazımi reabilitasiya müalicəsi yoxdur. SİA Ermənistana məxsus armenianreport.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri müdafiə nazirinin keçmiş müavini, keçmiş deputat, "Yerkrapa" birliyinin keçmiş rəhbəri Manvel Qriqoryanın vəkili Levon Baqdasaryan deyib. Onun sözlərinə görə, son epikriz deyilənlərə sübutdur.

"Bildirirəm ki, səhiyyə naziri, bir dövlətin ixtisaslaşmış səlahiyyətli səhiyyə orqanının rəhbəri dərk edərək, laqeydlik göstərir və Qriqoryanın işində hakim də belə davranır. Nəticədə xəstə çarəsiz vəziyyətə düşür. Çünki dövlət maşını xəstənin müalicə olunduğu və işlədiyi klinikada vaxtında müalicə olunmasına mane olur. Xəstənin köməksiz vəziyyətdə qalmasına, sağlamlığının bərpa olunmasına, ona işgəncə verilməsinə və öldürülməsinə görə kimlərsə məmnun qalsa da, dövlətin və ya ədalətin marağı nə ola bilər? Axı, bumeranq qanunu qüvvədədir və riyazi dəqiqliklə onlara və nəsillərinə qayıdacaq", deyə Baqdasaryan təhdid edib.

Baqdasaryan təsvir edilən hərəkətləri qeyri-insani rəftar və işgəncə adlandırıb. Vəkil hakimin hərəkətlərini qanunsuzluq üçün presedent hesab edir və sabah eyni məhkəmənin onun öz üzərində qurulacağını da xəbərdar edir.

"Mən yalnız ədəbi əsərlərdə, Yəhudi Holokost Nasistləri tərəfindən təşkil edilən videolarda bir insana qarşı belə bir qəddar münasibətə rast gəlməmişəm", deyə Baqdasaryan bildirib.

# "Əgər yenidən sərtləşdirilmiş karantin rejimini, xəstəliyin yenidən alovlanmasını istəmiriksə məsuliyyətli olmalıyıq"

*"Dünyada tüğyan edən COVID-19-un yayılmasının qarşısının alınması üçün aylardır mübarizə aparılır. Ölkələr çoxsaylı tədbirlər görür, virusun təsirinin azaldılması məqsədilə müxtəlif addımlar atır. Azərbaycan dövləti də əhalinin təhlükəsizliyinin və sağlamlığının qorunması üçün ən effektiv, təxirəsalınmaz tədbirləri həyata keçirir. Pandemiyanın ilk günlərindən birinci yumşalma mərhələsinə qədər ölkəmizin xüsusi karantin rejiminə keçidi dövründə yoluxma hallarının sayı minimuma endirilmişdi, ölüm halları çox aşağı səviyyədə olmuşdu, xüsusi rejimli xəstəxanalarda müalicə olunaraq sağalanların sayı yeni yoluxma hallarının sayını üstələmişdi". Bunu AZƏRTAC-a müsahibəsində YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.*

Sədaqət Vəliyeva bildirib ki, may ayının ilk ongünlüyündən sonrakı mərhələdə tətbiq olunmuş yumşalma tədbirlərindən sonra bəzi insanların gigiyenik və epidemioloji qaydalara riayət etməməsi nəticəsində yayılma və yoluxma artan dinamika almışdı: "Lakin sonra yenidən tətbiq olunan sərt karantin rejimi çərçivəsində yenidən xəstəlik nəzarət altına alındı. Elə bunun nəticəsidir ki, iyulun 16-dan bu günə qədər müsbət dinamika müşahidə edilməkdədir. Avqust ayından tətbiq olunmağa başlanan yumşalmalar isə pandemiyanın sona çatması anlamına gəlməməli, insanlarda arxayınlıq yaratmamalıdır. Pandemiyaya qarşı mübarizədə vətəndaş həmrəyliyi daha vacibdir. Pandemiyaya qarşı mübarizə üçün tibbi maskalardan istifadə, ara məsafənin saxlanılması, gigiyenik qaydalara əməl olunması tövsiyələri birbaşa vətəndaşların üzərinə düşən məsuliyyətdir. Ona görə də, ölkə vətəndaşları maska və sosial izolyasiya rejiminə, sanitar-epidemioloji



qaydalara hələ uzun müddət riayət etməli, o cümlədən həkimlərin və sanitar-epidemioloji qurumların tövsiyəsinə əsasən açılan obyektlərdə qayda-qanunlara, tələblərə riayət olunmalıdır. Həm istehlakçılar, həm də sahibkarlar bilməlidirlər ki, mövcud qaydalara ciddi şəkildə riayət olunmasa koronavirusa yoluxma sayı yenidən arta, xəstəliyin miqyası genişlənə bilər".

"Çox təəssüf ki, karantin rejimində yumşalmalardan arxayınlaşan bəzi vətəndaşlarımız hələ də maska taxmağın özü, yaxınları, çalışdığı kollektivin sağlamlığı üçün nə qədər böyük əhəmiyyət daşıdığını unudurlar", - deyən Sədaqət Vəliyeva əlavə edib ki, hələ də küçələrdə, ticarət obyektlərində maskasız gəzən, maskanı qolunda, cibində, alnında, çantasında gəzdirən vətəndaşlara rast gəlinir: "Bununla yanaşı, dəfələrlə deyilməsinə baxmayaraq, hələ də, gizli kafe və iaşə obyektlərinin, hətta "evlərdə bağçaların" fəaliyyət göstərməsi, qadağalara baxmayaraq, gizli toy, nişan, ad günü, yas mərasimlərinin keçirilməsi xəstəliyin artmasına səbəb olur. Qadağalara əməl etməyərək qeyri-qanuni yollarla regionlara gedənlər də virusun yayılmasına şərait yaradırlar. Həmçinin, çimərliklərin açılması ilə dənizə üz tutan insanların bir çox hallarda nəzərdə tutulan qaydalara əməl etməməsi, qələbəlik yaratması da yeni yoluxmalara səbəb olur. Bir daha qeyd etmək istərdim ki, yumşalma prosesinin tədricən davam etməsində, məhdudiyyətlərin aradan qaldırılmasında dövlət də, insanlar da maraqlıdır. Lakin nəzərdə tutulan qaydalara tam əməl olunmalı, qanunların pozulmasına yol verilməməlidir. Amma sahibkarlar, vətəndaşlar sosial məsafəyə, qoruyucu vasitələrə əhəmiyyət verməyəcəklərsə, onda xəstəlik yenidən alovlanacaq. Əgər yenidən sərtləşdirilmiş karantin rejimini, xəstəliyin yenidən alovlanmasını istəmiriksə məsuliyyətli olmalıyıq, pandemiyaya qarşı mübarizədə birlik və həmrəylik nümunəsi ortaya qoymalıyıq".

# TƏBİB: Azərbaycanda gələn həftədən testlərin keçirilməsinə başlanılacaq



"Azərbaycanda koronavirus pandemiyası ilə əlaqədar mübarizədə növbəti həftədən seroloji testlərin keçirilməsinə başlanılacaq". Bunu tibb üzrə fəlsəfə doktoru, TƏBİB Mikrobiologiya İşçi qrupunun rəhbəri Qumral Ələkbərova deyib. Onun sözlərinə görə, testlər təsadüfi seçilmiş əhali qrupları arasında könüllülük prinsipi ilə aparılacaq: "Həmin şəxslərə zəng etdikdən sonra razılaşdıqları halda qeydiyyatda olduqları poliklinikada hazırlanmış tibbi heyət həmin şəxslərin evinə yaxınlaşıb qan nümunələri götürəcəklər. Layihənin məqsədi əhali arasında COVID-19 xəstəliyinin keçirilməsi haqqında təsəvvürlərin əldə olunması, xəstəliyi keçirmiş şəxslərdə yaranmış immunitet səviyyəsinin öyrənilməsidir.

Bəzi şəxslər koronavirusu asimptomatik keçirir. Yəni, həmin şəxsin heç bir xəbəri olmur ki, bu xəstəliyi keçirib, ya yox. Testlər vasitəsilə yoxlanılacaq ki, həmin şəxslərdə xəstəliyə qarşı immunitet formalaşıb, yoxsa yox". Q.Ələkbərova qeyd edib ki, layihəyə Bakı şəhərindən başlanılacaq: "Bakıda 1500-ə yaxın şəxs tədqiqata cəlb olunacaq. Daha sonra Sumqayıt və Gəncə şəhərlərində həyata keçiriləcək. Analizlər tam təmənnasız götürüləcək. Analiz zamanı vətəndaş istəsə, qanın ümumi analizi də ödənişsiz icra olunacaq. Analizlər alındıqdan sonra laboratoriyalara göndəriləcək. Nəticə əldə edildikdən sonra maksimum 2-3 gün ərzində vətəndaşlara məlumat veriləcək. Statistik məlumatlar toplandıqdan, tam nəticələr əldə edildikdən sonra ictimaiyyətə bu barədə məlumat veriləcək".

Q.Ələkbərova bildirib ki, testlər 18-65 yaş qrupunda olan şəxslər arasında aparılacaq: "Bu şəxslər təsadüfi seçilənlərdir. 1-10 yaş arası uşaqlarda immunitetin formalaşması daha gec olur. Onlarda analiz daha çox neqativ nəticə verir. 65 yaş üzərində də nəticələr eynilə digər qrupdakı kimidir. Seçdiyimiz şəxslər hansısa risk qrupuna aid olan şəxslər deyil". İşçi qrupun rəhbəri vurğulayıb ki, ABŞ qurumu tərəfindən təsdiq edilmiş testlərdən laboratoriyalarda istifadə olunacaq:" Bu testlərin spesifikliyi, yeni yalnış nəticəsi çox aşağıdır, 100 faizdir, həssaslığı isə 90-96 faiz arasındadır. İstifadə olunan testlər Almaniya istehsalıdır. Güvənilir nəticələr əldə ediləcək"./APA

# "Yalnız bu halda iqtisadi aktivliyin tam bərpasına mümkündür"



"Sahibkarların bu qaydalara əməl etməsi və nəzarət etməsi olduqca əhəmiyyətlidir. Bunları hər bir vətəndaş və sahibkar edərsə, əminəm ki, iqtisadi açılımların mərhələli şəkildə keçirilməsi və bütövlükdə iqtisadi aktivliyin tam bərpasına nail olunması mümkündür". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü olan deputatı Vüqar Bayramov qeyri-ərzaq mağazalarının fəaliyyətə başlamasının büdcə daxilolmalarına hansı dərəcədə təsir edə biləcəyindən danışarkən deyib.

Onun sözlərinə görə, bütövlükdə iqtisadi aktivliyin bərpa edilməsi vergi daxilolmalarına müsbət təsir göstərir: "Çünki, iqtisadi aktivlik daxil olduqca dövriyyə artır və nəticədə büdcəyə qeyri-neft sektorundan daxilolmaların artmasına gətirib çıxarır. Bu baxımdan əslində pandemiya həm də iqtisadi bir məsələdir. Pandemiya qlobal, eləcə də milli iqtisadiyyata mənfi təsir göstərməkdədir. Bu baxımdan yoluxma saylarının azalması və iqtisadi aktivliyin bərpa edilməsi baxımından vacibdir. Biz hər birimiz qaydalara əməl etməklə yoluxma sayının azalmasına nail ola bilərik. Yoluxma sayının azalması sərt karantin tədbirlərinin yumşalmasına və iqtisadi aktivliyin bərpa edilməsinə imkan yarada bilər ki, bu da həm dövlət büdcəsinə daxilolmalar baxımından vacibdir, həm də sahibkarların və həmin sahibkarlıq subyektlərində çalışanların gəlirlərinin artması baxımından əhəmiyyyətlidir. Ən əsası bu real sektorda məşğulluğun təminatı baxımından vacib hesab olunur. Bu baxımdan təbii ki, iqtisadi aktivlik həm fiskal baxımdan, həm də iqtisadi baxımdan əhəmiyyətli hesab olunur".

Millət vəkili vurğulayıb ki, növbəti dövrlərdə iqtisadi açılımların davam etdirilməsi dövlət gəlirlərimizə müsbət təsir göstərəcək: "Təbii ki, xüsusilə də payız aylarında bizim virusdan qorunmaqla bağlı qaydalara, o cümlədən, tibbi maskdan istifadə etməyimiz, sosial məsafəni gözləməyimiz, sanitar-gigiyenik qaydalara əməl etməyimiz çox vacibdir. Sahibkarların bu qaydalara əməl etməsi və nəzarət etməsi olduqca əhəmiyyətlidir. Bunları hər bir vətəndaş və sahibkar edərsə, əminəm ki, iqtisadi açılımların mərhələli şəkildə keçirilməsi və bütövlükdə iqtisadi aktivliyin tam bərpasına nail olunması mümkündür. Bu da təbii ki, sahibkarlığın inkişafı, həm də büdcə gəlirlərimizin artması baxımından vacib hesab olunur".

***Nigar Məmmədova***

# Bakıya gətirilən yeni "London taksi"ləri yanacaq əvəzinə elektriklə işləyir



Bakıya gətirilən TX modelli yeni 100 ədəd "London taksi"si yanacaq əvəzinə elektriklə işləyir. SİA-nın məlumatına görə, avtomobillər həm ev şəraitində, həm də xüsusi quraşdırılmış məntəqələrdə cərəyanla təmin oluna bilər. Smart konfiqurasiyalı avtomobil 130 kilometrə qədər sırf elektriklə çalışır, sonra rejimin dəyişməsi mümkündür. Bu isə ətraf mühitə və ekologiyaya ziyanın sıfıra endirilməsi deməkdir.

Smart texnologiyaların geniş tətbiq edildiyi taksilər həm sürücü, həm də sərnişinlər üçün təhlükəsizdir. Belə ki, avtomobil özü yoldakı sürət həddi barədə sürücünü xəbərdar edir. Sürücü idarəetməni itirdikdə və ya yol trayektoriyasını dəyişdikdə xüsusi sensorlar ona müvafiq məlumatı ötürür. Yeni taksilərin sərnişin kabinası digər "London taksi"lərindən fərqli olaraq daha genişdir və altı oturacağı var. Avtomobillərdə USB portlar, "Wi-Fi" və GPS quraşdırılıb. Sürücü ilə sərnişin arasında əlaqəni minimuma endirmək üçün şüşə arakəsmə mövcuddur. Bu isə pandemiya dövründə təcrid və sosial məsafə baxımından da olduqca əlverişlidir. Kabinada sürücü ilə əlaqə üçün xüsusi mikrofon, görmə qüsurlu sərnişinlər üçün brayl əlifbası ilə idarəetmə paneli, eşitmə əngəllilər üçün isə təlimat lövhəsi var. Avtomobil fiziki əngəllilər üçün pandusla təchiz edilib. Bu taksilərdə ödənişi pos-terminal vasitəsilə də həyata keçirmək mümkün olacaq.

# Hamımız yeni qaydalarla yaşamağı öyrənməliyik

***- Eldəniz müəllim, dünyanı bürüyən koronavirus infeksiyası ilə mübarizədə Azərbaycan digər dövlətlərə nümunə olan təcrübəsini nümayiş etdirir. Özünütəcrid COVID-19-lə mübarizədə qələbənin əsas şərti kimi irəli sürülərək karantin rejimində mərhələli şəkildə sərtləşmələr və yumşalmalar həyata keçirildi. Artıq avqustun 5-dən növbəti yumşalma qaydaları qüvvədədir...***



Milli Məclisin deputatı
Eldəniz Səlimovun
yap.org.az-a müsahibəsi

- Karantin qaydaları yumşaldılsa da bugünümüzün əsas çağırışı birliyimizin, həmrəyliyimizin möhkəmləndirilməsi ilə yanaşı, məsuliyyət hissini artırmaq, nizam-intizam qaydalarına riayət etməkdir. Azərbaycanın pandemiyaya qarşı mübarizə tədbirlərinə başlandığı gündən atdığı addımların təməlində məsuliyyət hissinin artırılması, dövlət-vətəndaş birliyinin daha da möhkəmləndirilməsi dayanıb. Məhz sosial məsuliyyətə söykənərək həyata keçirilən sistemli tədbirlər nəticəsində kütləvi yoluxma hallarının qarşısı alınır. Azərbaycan, həmçinin COVID-19-la mübarizədə birliyin, həmrəyliyin vacibliyini dünyaya ünvanladığı çağırışlarını reallıqda təsdiqləməklə də nümayiş etdirir. Ölkəmizin təşəbbüsü ilə Türk Şurasının, Qoşulmama Hərəkatının videoformat şəklində Zirvə görüşlərinin, eyni zamanda, BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi də deyilənlərin təsdiqidir. "Qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik" söyləyən cənab İlham Əliyev irəli sürdüyü təşəbbüslərlə dünyanı birləşdirdi.

Cənab İlham Əliyev ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirdiyi müşavirədə Azərbaycanın pandemiya dövründə atdığı addımların xronologiyasına diqqəti yönəldərək bu məqamı xüsusi qeyd etmişdir ki, iyulun 16-dan bu günə qədər müsbət dinamika deməyə əsas verir ki, görülmüş bütün tədbirlər vaxtında görülmüş tədbirlərdir. Bu tədbirlər nəticəsində vəziyyət bu günə qədər nəzarət altındadır. İyulun 16-dan bu günə qədər yoluxanların sayı sağalanların sayından xeyli aşağıdır. Prinsip etibarilə ilk günlərdən, bu xəstəlik meydana çıxandan dərhal sonra bütün lazımi qabaqlayıcı tədbirlər görüldü. Bunun nəticəsində biz bu vəziyyətdən az itkilərlə çıxırıq.

Xüsusi karantin rejiminin davam etdiyi dönəmdə hamı karantin qaydalarına, Operativ Qərargahın qərarlarına, TƏBİB-in tövsiyələrinə, xüsusilə dövlətimizin başçısı İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çağırışlarına əməl etməlidir. Hamı bir nəfər kimi tibbi maskalardan və əlcəklərdən istifadə etməli, sosial məsafəni gözləməlidir. Sərt karantin rejiminin yumşaldılması virusun yoxa çıxması demək deyil. İnsanlar ehtiyac və zərurət olmadığı təqdirdə, küçəyə çıxmamalıdırlar. Bu, insanların təkcə özünü deyil, həm də ətrafını qoruması deməkdir. Belə bir ciddi məsələ müzakirə obyekti ola bilməz. Ən böyük sərvətimiz olan sağlamlığımızı qorumaq, ətrafımızdakı insanlara xoş ovqat bəxş etmək istəyiriksə, tələb olunan qaydalara əməl etməliyik. Bu, eyni zamanda, ölkəmizin davamlı inkişafına töhfə vermək deməkdir. Hər kəs tutduğu vəzifəsindən asılı olmayaraq vətəndaşlıq təəssübkeşliyindən çıxış edərək mübarizədən qalib çıxmağa dəstək olmalıdır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva xalqa dəfələrlə müraciətində "Bütün ölkələrə və xalqlara bu qədər bəla və əzablar yaşadan virus hələ məğlub olmayıb. O, əvvəlkitək hamı üçün ciddi təhlükə olaraq qalır və əvvəlkitək bizim aramızdadır. COVID-19-a qarşı vaksinin nə zaman hazırlanacağını və xəstəliyin tez və effektiv müalicə üsulunun nə vaxt yaranacağını bu gün dəqiqliklə heç kim deyə bilmir. Hələ ki, bu, baş verməyib, hamımız dərk etməli və qəbul etməliyik ki, biz bu yeni reallıqla yaşamalıyıq. Biz heç bir halda sayıqlığımızı itirməməli, ümidverici rəqəmlər fonunda səhlənkarlığa imkan verməməliyik. Belə əziyyətlə nail olduğumuz nəticələri sıfıra endirərək itirmək yolverilməzdir. Laqeydlik hər birimizə, bizim yaxınlarımıza, bizim ölkəmizə real təhlükə törədəcəkdir. Biz hamımız yeni qaydalarla yaşamağı öyrənməliyik. Əslində bu qaydalar elə də çətin deyil - məsafə saxlamaq, qoruyucu vasitələrdən istifadə etmək, tez-tez əlləri yumaq. Tərəzinin digər gözündəki həyat və sağlamlığımızdır. Yeni acı həqiqət budur və bununla Prezidentdən başlayaraq sıravi vətəndaşlaradək hamı hesablaşmaq məcburiyyətindədir" çağırışlarını edərək, bu inamı da ifadə edir ki, COVID-19 adlı qorxulu hekayənin geridə qalacağı gün gələcək. Həmin gün uzaqda deyil: "Amma hələ ki, o gün gəlməyib, hörmətli qardaşlar və bacılar, xahiş edirəm, sayıq və intizamlı olun, yeni qayda və tələblərə tam ciddiyyətlə yanaşın. Özünüzdən və yaxınlarınızdan muğayat olun! Bizim sevimli Vətənimizi, bizim Azərbaycanımızı qoruyun!"

Qaydaların yumşaldılması dövründə virusun yayılması artıq vətəndaşlarımızın bu məsələyə ciddi yanaşmasından qaynaqlanacaq. 6 aya yaxındır dünyada və ölkəmizdə koronavirus pandemiyası yaşanmaqdadır. Bütün dünya ölkələri kimi, Azərbaycan dövləti və xalqı da bu "gizli düşmən" ilə mübarizə aparmaqda davam edir. COVID-19-la mübarizənin birinci mərhələsini uğurla başa vuran Azərbaycanın, müsbət dinamikanı sonadək davam etdirəcəyinə əminik. Dövlətimizin qətiyyəti, Prezident İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın səyləri bu əminliyə əsas verir.

***- Pandemiya dövrünün əsas prinsipləri insanların sağlamlığının qorunması, sosial müdafiəsinin gücləndirilməsi, iqtisadiyyatın dayanıqlılığının təmin edilməsidir...***

- Hökumət var gücü ilə çalışır ki, koronavirus bəlası insanlarımızın sağlamlığına, iqtisadiyyatımıza böyük zərbələr vurmasın. 6 aya yaxın dövr ərzində görülən tədbirlər də bu məqsədə xidmət edir. Dövlətimizin başçısı İlham Əliyevin son videoformat şəklində keçirdiyi müşavirədə qeyd etdiyi kimi, ötən dövrdə təqribən 5 milyona yaxın insan geniş sosial paketlə əhatə edilib. Aprel-may aylarında 600 min, iyun ayında isə 290 min insana birdəfəlik yardım verilib. Pandemiyaya qarşı mübarizə tədbirlərinə başlandığı gündən dövlətimizin başçısı İlham Əliyevin 19 mart 2020-ci il tarixli Sərəncamına uyğun olaraq sosial dəstək və məşğulluq tədbirlərinin həyata keçirilməsi davamlılığı ilə diqqət çəkir. Dövlətimiz atdığı addımları ilə hər zaman vətəndaşının yanında olduğunu təsdiqləyir. Bir sözlə, insan amili dövlət siyasətinin ana xəttini təşkil edir.

Cənab İlham Əliyev son müşavirədə insanların sağlamlığının və sosial müdafiəsinin gücləndirilməsinin prioritet olduğunu önə çəkərək bu məqamı xüsusi qeyd etmişdir ki, bu iki vəzifəni yerinə yetirmək üçün iqtisadiyyatın dayanıqlılığının təmin olunması vacibdir. Bununla bağlı aidiyyəti qurumlara, dövlət şirkətlərinə və müəssisələrə tapşırıqlarını verdi. Dövlətimizin başçısı İlham Əliyevin 7 avqust 2020-ci il tarixli "Azərbaycan İnvestisiya Holdinqinin yaradılması haqqında" Fərmanında da məqsəd dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin vahid prinsiplər əsasında idarə olunması, onların fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən həyata keçirdikləri investisiya proqramlarının şəffaflığının və iqtisadi səmərəsinin yüksəldilməsi, rəqabət qabiliyyətinin artırılması, maliyyə sağlamlığının və dayanıqlılığının yaxşılaşdırılmasıdır.

Göründüyü kimi, dövlətimizin başçısı İlham Əliyev ən çətin anlarda belə kompleks tədbirlərin həyata keçirilməsini diqqətdə saxlayır. Zamanın, dövrün tələblərinə uyğun olaraq idarəçilik sistemində təkmilləşmə davamlı inkişafı şərtləndirir ki, Azərbaycan İnvestisiya Holdinqinin yaradılması da bu istiqamətdə atılan növbəti addımdır.

***- Eldəniz müəllim, necə düşünmək olar, karantin rejimində növbəti dəfə sərtləşmə ola bilərmi?***

- Möhtərəm Prezidentimiz İlham Əliyevin son müşavirədə səsləndirdiyi "Mən istəyirəm ki, bu yumşalma prosesi tədricən davam etsin və sonrakı yumşalma addımını şərtləndirsin. Amma əgər vətəndaşlar görsələr ki, artıq hər şey açılıbdır, yenə də bütün bu məsafəyə, qoruyucu vasitələrə əhəmiyyət verməyəcəklərsə, onda xəstəlik yenidən alovlanacaq. Biz gərək yenə də sərtləşdirilmiş tədbirlər görək, yenə də iqtisadiyyata zərbə vurulacaq, yenə də insanlar xəstələnəcəklər. Ona görə bütün Azərbaycan vətəndaşlarına bir daha müraciət edirəm ki, məsuliyyətli olun. Bu, çox ağır xəstəlikdir. Bu xəstəlik yaş tanımır, cavan insanlar, gənc insanlar, fiziki cəhətdən sağlam insanlar, idmançılar xəstələnir və rəhmətə gedir. Bu, dünya üçün çox ciddi problemdir, bu gün dünyanın bir nömrəli bəlasıdır. Ona görə hamımız məsuliyyətli olmalıyıq. Əgər belə olsa, dediyim bütün tapşırıqlar yerinə yetirilsə, biz qısa müddət ərzində bu karantin rejimini daha da yumşaldıb normal həyata daha tez qayıda bilərik" çağırışları hər birimizi ciddi düşündürməli, səfərbər etməli, məsuliyyətimizi artıraraq COVID-19-la mübarizədə qalib olmaq, əvvəlki həyatımıza qayıtmaq üçün səylərimizi artırmağa stimul olmalıdır. Bugünümüzün müsbət dinamikası gələcəyə nikbin baxmağımıza əsas verir. Amma bu, heç kəsdə arxayınlıq yaratmamalıdır. Gigiyena qaydalarına əməl edək, tibbi maskadan istifadəni, sosial məsafəni gözləməyi unutmayaq. Bu tələblərə riayət edərək daha yüksək səslə "Biz birlikdə güclüyük!" deyək.

# Elşad Mirbəşiroğlu: İlk səfərlərin qardaş Türkiyəyə edilməsi kifayət qədər ciddi siyasi hədəflərə hesablanıb



***"İlk səfərlərin istər prezident, istərsə də vəzifəli şəxslər səviyyəsində qardaş Türkiyəyə edilməsi kifayət qədər ciddi siyasi hədəflərə hesablanıb". Bu fikirləri "Yeni Tv"-nin canlı yayımında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu bildirib.***

O qeyd edib ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun ilk xarici səfərini Türkiyəyə etməsi, növbəti dəfə beynəlxalq ictimaiyyətə Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının, qardaşlıq münasibətlərinin göstəricisi kimi təqdim olunur: "Belə bir addımların atılması, strategiyanın müəyyənləşdirilməsi gələcəkdə Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin xüsusi inkişaf nöqtələrinə çatmasını təmin edəcək. Belə olan halda iki ölkə arasında problemlər də ümumiləşir".

E.Mirbəşiroğlu deyib ki, hərbi, ticari-iqtisadi, elm, eyni zamanda humanitar sahədə Azərbaycan-Türkiyə münasibətlərində əməkdaşlıq, dünya ölkələri üçün istər ikitərəfli, istərsə də çoxtərəfli münasibətlərin qurulması baxımından örnəkdir. Təsadüfi deyil ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da prezident seçildikdən sonra ilk səfərini Azərbaycana edir. Bu dünyaya ünvanlanan bir mesajdır ki, Türkiyə Azərbaycanın yanındadır və Azərbaycan Türkiyə üçün strateji tərəfdaşdır. Bütün sahələrdə Azərbaycan-Türkiyə əməkdaşlığı, qardaşlığı sarsılmazdır. Belə bir münasibət əsasında qurulan əməkdaşlıq həmişə keyfiyyətli olacaq və bununla da bütün hədəflərə çatılacaq".

# "Dövlətimiz pandemiya ilə mübarizədə bütün zəruri resursları səfərbər edib"

***Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən ölkəmizdəki hazırkı sanitar-epidemioloji vəziyyətə uyğun olaraq sərt karantin rejiminin mövcud olduğu şəhər və rayonlarda, eləcə də ölkə üzrə bəzi yumşalmaların tətbiqinə qərar verilib. Qərarda karantin rejiminin tələblərinə uyğun müəyyən edilən qaydalar çərçivəsində ölkə üzrə çimərliklərin istifadəsinə icazə verilməsi də əksini tapıb. Təbii ki, burada sanitar-epidemioloji vəziyyətlə yanaşı, analoji məsələ ilə bağlı beynəlxalq təcrübədə əksini tapmış şərtlər və qaydalar da nəzərə alınıb ki, bu da olduqca mühüm və mütərəqqi addımdır.***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

Hikmət Baboğlu diqqətə çatdırıb ki, "ASAN xidmət" pandemiya dövründə çimərlik ərazilərindən istifadə ilə bağlı beynəlxalq təcrübəni öyrənərək, vətəndaşlar üçün ən təhlükəsiz şəraitdə çimərliklərdən istifadənin təmin edilməsinə çalışıb. Məhz bundan sonra 120 çimərlikdə xüsusi çimərlik zonası yaradılıb, məlumatlandırıcı lövhələr və dezinfeksiya etmək üçün xüsusi qurğular quraşdırılıb, prosesə min ASAN könüllüsü cəlb edilib. Eyni zamanda, müvafiq onlayn resurs istifadəyə verilib. Beləliklə, karantin dövründə insanların açıq havada istirahət etmələri üçün tam təhlükəsiz şərait yaradılıb. Bu mərhələdə də vacib amil gigiyena qaydalarına və sosial məsafə tələbinə riayət etməkdir: "Təəssüflər olsun ki, bəzi şəxslər insanların sağlamlığı və təhlükəsizliyinə xidmət edən mövcud qərarlarla bağlı spekulativ rəy formalaşdırmağa çalışırlar. Məsələn, bir müddətdir ki, sosial şəbəkələrdə "çimərliklər istifadəyə açılmalıdır" fikrini fəal təbliğ edənlər müvafiq qərarın əhəmiyyətini azaltmaq, yaxud bu addımın üzərinə kölgə salmaq üçün diqqəti başqa məsələyə yönətməyə çalışırlar. Onlar "rayonlara gediş-gəlişin bərpa olunması lazımdır" fikrini ifadə etməklə ictimai rəyi manipulyasiyaya məruz qoymağa çalışırlar.

Deputatın sözlərinə görə, mütəxəssislərin birmənalı rəyi budur ki, yumşalma prosesi tədricən olmalı, mövcud sanitar-epidemioloji vəziyyətə uyğun mərhələli addımlar atılmalıdır. İlk olaraq çimərliklər istifadəyə verildi, növbəti mərhələlərdə müxtəlif yumşalmalar da ola bilər. Əsas məsələ insanların məsuliyyəti və qaydalara tam əməl etmələridir. Unutmamalıyıq ki, vətəndaş məsuliyyətinin nəticəsi kimi, yoluxma və aktiv xəstə sayı azalsa, daha bir sıra məhdudiyyətlər aradan qaldırılar. Avropanın koronavirusla ciddi mübarizə sınağı vermiş bir sıra inkişaf etmiş ölkələrinin, o cümlədən Almaniya, İtaliya, İspaniya kimi dövlətlərin təcrübəsi də mərhələli və tədricən yumşalma prosesinin məqbul və effektiv seçim olduğunu göstərir.

"Dövlətimiz koronavirus pandemiyası ilə mübarizə çərçivəsində bütün zəruri resursları səfərbər edib və Azərbaycan təcrübəsi dünya miqyasında müsbət nümunə kimi dəyərləndirilir. Hazırkı həlledici mərhələdə dövlətin müvafiq tədbirlərinə ictimai dəstək davam etdirilməli, işin ciddiliyinə və əhəmiyyətinə kölgə salmaq cəhdlərinə yol verilməməlidir. Bu, koronavirusla mübarizənin effektivliyini təmin edəcək ən mühüm strateji faktordur",- deyə Hikmət Babaoğlu vurğulayıb.

## "Arxayınlaşmamalıyıq, bu, arzuolunmaz nəticələrə gətirib çıxara bilər"




"Normal həyata dönmək, koronavirus bəlasından xilas olmaq hər kəsin arzusudur. Bunun üçünsə, bir qədər də səbrli, dözümlü olmaq lazımdır". Bunu SİA-ya millət vəkili İlham Məmmədov deyib. Deputatın sözlərinə görə, virusa yoluxma sayının azalmasından da arxayınlaşmaq olmaz: "Çünki arxayınlaşıb qaydalara riayət etməmək virusa yoluxma sayının artmasına səbəb olar ki, bu da arzuolunmaz vəziyyətə gətirib çıxara bilər. Yoluxma sayının azalmasının əsas səbəbi dövlətin həyata keçirdiyi tədbirlər, vətəndaşların karantin rejiminə, sosial izolyasiya qaydalarına əməl etmələri ilə bağlıdır. Bu gün vətəndaşların əksəriyyətində şəxsi refleks, yəni tibbi maskadan istifadə edilməsi, sosial məsafə saxlanması, dezinfeksiya edici vasitələrdən istifadə edilməsi vərdişi formalaşıb. Bunlar müsbət haldır və o deməkdir ki, insanlar indiki şəraitin tələblərilə yaşamağa öyrəşir. Biz qaydalara mütləq şəkildə əməl etməliyik ki, bu bəladan tezliklə xilas ola bilək.

Qarşıdan payız fəsli gəlir. Həmin mövsümdə də infeksion xəstəliklər baş qaldırır. Çalışmaq lazımdır ki, payız mövsümünə qədər maksimum dərəcədə virusun yayılmasının qarşısı alınsın. Bu baxımdan ölkəmizdə xüsusi karantin rejiminin uzadılması doğru addım kimi qiymətləndirilməli və insanlarımız bunu anlayışla qəbul etməlidir. Hələki, dünyada koronavirusa qarşı tam təsdiq olunmuş peyvənd və ya dərman preparatı tapılmayıb. Bəzi dövlətlər peyvəndlər haqqında məlumatlar verirlər. Azərbaycan dövləti də bu məsələni diqqət mərkəzində saxlayır. Amma bu məsələdə tələsmək lazım deyil.

Qeyd etdiyim kimi, hazırda ölkəmizdə koronavirusun azalması ilə bağlı müsbət dinamika müşahidə olunur, sağalanların sayı yoluxanların sayını xeyli üstələyir. Bu müsbət dinamikanın saxlanması və uğurlu sonluğa çatmaq üçün üçün fərdi və ictimai məsuliyyətin saxlanılması vacibdir. Bu baxımdan hər kəs özünü və yaxınlarını virusa yoluxmadan maksimum qorumaq üçün tibbi-profilaktik qaydalara riayət etməli, ictimai yerlərdə 5 nəfərdən artıq qruplarda cəmləşməməli, sosial məsafəni saxlamalı, qoruyucu tibbi maskalardan istifadə etməlidir. Biz birlikdə mübarizə apararaq bu bəlaya qalib gələ və normal həyatımıza dönə bilərik".

## Bu şəxslərə təkrarən yardımların verilməsinə başlanıldı




Azərbaycan Respublikası Prezidentinin tapşırığına və Nazirlər Kabinetinin sahibkarlıq subyektlərinə yeni maliyyə dəstəyinin göstərilməsi barədə müvafiq qərarına əsasən, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən fərdi (mikro) sahibkarlara vəsaitlərin köçürülməsi ilə bağlı prosesə start verilib. İqtisadiyyat Nazirliyindən SİA-ya verilən məlumata görə, maliyyə dəstəyinin ikinci mərhələsi çərçivəsində belə dəstəyə daha çox ehtiyacı olan və birinci mərhələdə 250 manat həcmində birdəfəlik ödəniş almış fərdi (mikro) sahibkarlara təkrarən vəsait ödənilir.

Avqustun 11-dən başlayaraq, ikinci mərhələ çərçivəsində 49.421 fərdi (mikro) sahibkarın bank hesablarına maliyyə dəstəyi köçürülməsinə başlanılıb. Birinci mərhələdən fərqli olaraq, bu dəfə vergi ödəyicilərinin yenidən müraciət etməsinə ehtiyac yoxdur. Maliyyə dəstəyi üzrə ödənişlər əvvəllər bu dəstəyi almış vergi ödəyiciləri üzrə həyata keçirilir. Qeyd edilməlidir ki, fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi proqramının birinci mərhələsi çərçivəsində indiyədək daxil olmuş və təsdiqlənmiş 111.209 müraciət üzrə maliyyə dəstəyinin bank hesablarına köçürülməsi üçün təqdim edilib. Təsdiq olunmuş müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 63,66 milyon manat təşkil edir. Artıq birinci mərhələ çərçivəsində 63,55 milyon manat vəsaitin 106.907 nəfər fərdi (mikro) sahibkarın bank hesablarına köçürülməsi təmin olunub.

Yaxın zamanlarda isə pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi prosesinə başlanılacaq. Nazirlər Kabineti tərəfindən qəbul edilmiş qərara əsasən, bu günədək pandemiyadan zərər çəkmiş sahələrdə çalışan, maliyyə dəstəyi almış və dövlət başçısının çağırışına cavab olaraq, işçi saylarında ciddi azalmalara yol verməmiş vergi ödəyicilərinə 1 iyul 2020-ci il tarixinə olan işçi sayına münasibətdə bir aylıq əməkhaqqı fondu həcmində maliyyə dəstəyi göstəriləcək. Maliyyə dəstəyi avqust və sentyabr aylarını əhatə etməklə 2 mərhələdə bərabər hissələrlə ödəniləcək.

## Baş Prokurorluq: Şəfahət Məmmədova təyin edilmiş cəzanın yüngül olması əsası ilə apellyasiya protesti verilib



Bəzi kütləvi informasiya vasitələrində və sosial media səhifələrində 16 yaşına çatmayan şəxslə cinsi əlaqədə olmaqda təqsirləndirilən şəxsin məhkəmənin hökmü ilə bir il müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum olunması ilə bağlı informasiyalar yayılıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Şəfahət Məmmədovun Cinayət Məcəlləsinin 152.1-ci (on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli hərəkətlər etmə) maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə istintaq tamamlanaraq, ittiham aktı iyunun 16-da Lerik rayon prokuroru tərəfindən təsdiq edilib və iş baxılması üçün aidiyyəti üzrə Lerik Rayon Məhkəməsinə göndərilib.

Məhkəmənin 2020-ci il 30 iyul tarixli hökmü ilə Şəfahət Məmmədov Cinayət Məcəlləsinin həmin maddəsi ilə təqsirli bilinərək, ona bir il müddətə azadlıqdan məhrum etmə cəzası təyin olunub. Hökmdən dövlət ittihamçısı tərəfindən Şəfahət Məmmədova təyin edilmiş cəzanın yüngül olması əsası ilə Şirvan Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasına apellyasiya protesti verilib.

# Metsamor AES ilə əlaqəli narahatlıqlar regiondakı təhlükəsizlik kontekstindən kənarda həll edilə bilməz

***Enerji resursları sahəsində tanınan "Energi Intelligence Group" media şirkətinin "Nuclear Intelligence Weekly" həftəlik buraxılışında Azərbaycan Respublikasının Vyanadakı Beynəlxalq Təşkilatlar yanında daimi nümayəndəsi səfir Qalib İsrafilovla müsahibə dərc olunub.***

AZƏRTAC xəbər verir ki, müsahibədə Azərbaycanla beynəlxalq qurum arasında əməkdaşlıq, Ermənistanın Metsamor AES-in region üçün doğurduğu təhlükə, eləcə də son dövrlərdə spekulyasiyalara yol açan bir sıra fikirlər barədə danışılıb.

Səfir Q.İsrafilov müsahibədə AEBA-nın Baş direktoru Rafael Qrossiyə ötən ay ünvanlanan müraciətindən bəhs edərkən bildirib ki, seysmik həssas zona yaxınlığında yerləşən Metsamor AES-in fəaliyyətinin davam etdirilməsi regionun təhlükəsizliyi üçün ciddi problem yaradır. Bu narahatlığın təşkilatda təmsil olunan üzv dövlətlər və İdarə Heyəti üzvlərinə, eləcə də Təhlükəsizlik departamentinə çatdırıldığını deyən səfir hazırda AEBA-nın bu narahatlıqlarla məşğul olmaq üçün mexanizmlərinin olmadığını bildirib, çünki Ermənistan tərəfi bu məsələləri nəzərdən keçirmək arzusunda deyil. Beləliklə, ilk növbədə, Ermənistan hökuməti regiondakı qonşuları ilə daha şəffaf olmaq üçün siyasi niyyət və iradəsini nümayiş etdirməli, həmçinin AES-in təhlükəsizliyinə dair narahatlıqlarla bağlı daha açıq mövqe tutmalı idi. Bunlar olmadığı təqdirdə, Ermənistanla yalnız ikitərəfli razılaşma bağlamış agentlik Ermənistanı məcbur etmək üçün heç bir mexanizmi işə sala bilməz.



Səfir diqqətə çatdırıb ki, Azərbaycan tərəfi buna görə də AES-in təhlükəsini müvafiq dairələrə çatdırmaq üçün siyasi narahatlığın ifadəsini yeganə vasitə kimi görür. Eyni zamanda, Metsamor AES ilə əlaqəli narahatlıqlar regiondakı təhlükəsizlik kontekstindən kənarda həll edilə bilməz. Regiondakı təhlükəsizliyi isə Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və əraziləri davamlı şəkildə işğal altında saxlaması ciddi şəkildə pozur.

Müsahibədə, həmçinin diqqətə çatdırılıb ki, Azərbaycan Müdafiə Nazirliyinin rəsmisinin iyul ayında verdiyi müvafiq açıqlaması yalnız yuxarıda qeyd edilən təhlükəsizlik kontekstində başa düşülməlidir. Səfir xüsusilə diqqətə çatdırıb ki, hədə ritorikasına gəldikdə, Ermənistanın ən yüksək dövlət rəsmilərinin silsilə açıqlamaları mövcuddur. Belə ki, Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan hələ 2014-cü ildə Azərbaycanın böyük şəhərlərinə ballastik raketlərlə zərbələr endirə biləcəklərini elan etmişdi. Ermənistan tərəfi mütəmadi olaraq Azərbaycanın mülki hədəflərinə zərbələr endirəcəklərinə dair açıqlamalar versələr də, bu açıqlamalar nədənsə mətbuatın diqqətindən kənarda qalıb. Lakin bir Azərbaycan hərbçisinin erməni tərəfinin sözlərinə cavab açıqlamasından isteriyaya düşən erməni tərəfinin səs-küyü medianın diqqətini özünə cəlb etməsi yalnız təəssüf doğurur.

Q.İsrafilov bir daha Azərbaycan tərəfinin mövqeyini diqqətə çatdıraraq vurğulayıb ki, Azərbaycan Silahlı Qüvvələri Ermənistan ərazisində heç bir mülki obyekt və infrastrukturu hədəfə almır. Azərbaycan Silahlı Qüvvələri qarşısında belə bir tapşırıq qoyulmayıb və bu mövzudakı bütün spekulyasiyalar əsassızdır. Müsahibə zamanı, həmçinin AEBA çərçivəsində əməkdaşlıq məsələləri, beynəlxalq təşkilatın nüvə enerjisindən dinc məqsədlər üçün istifadəyə nəzarət mexanizmləri, multilaterial çərçivədə fəaliyyət imkanları və digər mövzularda suallar da cavablandırılıb.

# "Ermənistan dayaqlarını itirib və "political knockout" vəziyyətindədir"

***"Hazırda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli, Ermənistan tərəfindən işğal altında saxlanılmaqda olan Dağlıq Qarabağın və 7 rayonun qaytarılması ilə bağlı tarixi şərait yaranıb". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Azərbaycan Milli QHT Forumunun vitse-prezidenti, Beynəlxalq Dialoq və İnkişaf Alyansının sədri Nüşabə Məmmədova deyib.***



Alyansın sədri qeyd edib ki, bu istiqamətində həlledici addımların atılması zərururəti bəlkə də heç vaxt bu qədər real olmayıb: "Qərbin dəstəyinə güvənən Ermənistan regionda mövcud olan dayaqlarını da itirib. Rus politoloqları iddia edirlər ki, Dağlıq Qarabağ ətrafında vəziyyətin yenidən gərginləşəcəyi təqdirdə, artıq Rusiya Ermənistanı müdafiə etməyəcək. Digər tərəfdən, iyulun ortalarında Ermənistanın Tovuz təxribatından sonra dünyanın bir çox ölkələrində azərbaycanlılara qarşı erməni vandalizmi və digər ifşa faktları Qərbin siyasi dairələrində Ermənistanın diplomatik, siyasi mövqeyinə ciddi zərbə oldu. Qərb mətbuatında Ermənistan hakimiyyətinə olan etimadsızlıq, həmçinin COVİD-19 pandemiyası dövründə Ermənistan rəhbərliyinin vəziyyəti düzgün dəyərləndirə bilmədiyi barədə yazılar dərc olunmaqdadır. Həmçinin Ermənistan müxalifət partiyaları tərəfindən ölkədə iqtisadiyyatın çöküşü, investisiyaların olmaması, koronavirusla mübarizənin uğursuzğu əsas gətirilərək Nikol Paşinyan hakimiyyətinin istefasını tələb edən bəyanatlar verilir. Ermənistan "political knockout" vəziyyətindədir. Ermənistanın yeganə yolu beynəlxalq qanunların tələblərinə əməl edərək, Azərbaycanın sərhədləri daxilində olan Dağlıq Qarabağdan və 7 rayondan geri çəkilməkdir. Yalnız bundan sonra regional layihələrə qoşularaq erməni əhalisini ağır sosial-iqtisadi vəziyyətdən xilas etməsi mümkün olacaqdır".

# "Ermənistanın havadarları bu məsələyə ehtiyatla yanaşmalıdır"

"Türkiyə faktoru kifayət qədər ciddidir. Təsadüfi deyil ki, Azərbaycan-Türkiyə təlimlərinin keçirildiyi günlərdə Ermənistanda ciddi narahatlıq ifadə olunurdu. Təbii ki, bu təlimlər Ermənistan və onun havadarlarına cavab xarakteri daşıyırdı. Hər kəsə məlum oldu ki, Türkiyə də Qarabağ prosesində var və Azərbaycanın maraqlarını nəzərə almaq lazımdır. Əks təqdirdə, sülh danışıqları dayandırıla, savaş başlaya bilər. Bu halda da Ermənistan və Azərbaycan təkbətək savaşmayacaqsa, yəni erməni tərəfinə yardım edəcəklərsə, o zaman Azərbaycan da tək olmayacaq". BunuSİA-ya politoloq Zaur Məmmədov deyib.



Politoloqun sözlərinə görə, Türkiyə indi bir neçə istiqamətdə fəal şəkildə geosiyasi hədəflərinə çatmaq uğrunda mübarizə aparır: "Qardaş ölkə bir çox çağırışla üz-üzədir. Biz bunu Aralıq dənizinin hər millimetrində görürük. Misir, BƏƏ, Yunanıstan, Fransa və Səudiyyə Ərəbistanı ilə ciddi problemlər var. Belə bir situasiyada Türkiyənin Cənubi Qafqazdakı fəallığı təqdirəlayiqdir. Ermənistan və onun havadarları anlamalıdırlar ki, öhdəliklər var və bunlar İrəvan tərəfindən "Madrid prinsipləri" üzrə qəbul edilib. Ya bu öhdəliklər yerinə yetirilməlidir, ya da danışıqlara son qoyulmalıdır. Danışıqlar nəticə vermirsə, Azərbaycan bütün beynəlxalq hüquq normalarını əsas götürərək, öz ərazilərini işğaldan azad etmək üçün hərbi əməliyyatlara başlamalıdır.

Həmin qüvvələr başa düşməlidir ki, bu, sıradan bir müharibə olmayacaq. Bura nə Gürcüstandır, nə də Ukrayna - Azərbaycan tək deyil. Artıq Pakistan yüz minlik ordusu ilə Azərbaycana öz dəstəyini təklif edib. Üstəgəl, ehtimal olunan savaşda Şimali Qafqazda türk-müsəlman xalqlarının Azərbaycana dəstəyi ifadə olunacaq. Türkiyə kimi güclü bir dövlət də Azərbaycanın yanındadır. Buna görə də, Ermənistanın havadarları bu məsələyə ehtiyatla yanaşmalıdır. Xüsusən də İran və Rusiya öz sərhədləri yaxınlığında vəziyyətin gərginləşməsinə yol verməməlidir. Bu səbəbdən də Ermənistana təzyiq etməlidirlər. Onlar başa düşməlidir ki, Ermənistanın təxribatçı fəaliyyətləri həm də onlara qarşı çevrilib. Soros başda olmaqla, müəyyən qruplar Ermənistan vasitəsilə Rusiya və İrana qarşı təxribatlar törədirlər. Amma əfsuslar olsun ki, İran və Rusiya daxilindəki bəzi qruplar da öz ölkələrinin milli maraqlarını satmaqla məşğuldurlar".

# "Polisə qara yaxanlar "5-ci kolon" tərəfindən idarə olunur"



"Bu günlərdə sosial şəbəkələr vasitəsi ilə Azərbaycan polisinə qarşı düşünülmüş və idarə olunan formada çirkab oyunlar aparılır. Hesab edirəm ki, bu oyunların və qarayaxmaların arxasında Azərbaycanda təxribatlar törətməyə cəhd edən "5-ci kolon" təmsilçiləri dayanır. Məqsəd birdir, xalqın etimadını qazanan, ölkə Prezidentinə sədaqətlə xidmət edən, dövlətçiliyin qorunmasında müstəsna xidmətləri olan Azərbaycan polisinə ləkə vurmaq, onların bütün dövrlərdə, xüsusən də pandemiya dövründə apardıqları şərəfli xidmətlərinə kölgə salmağa cəhd etməkdir". Bunu SİA-ya İnsan Alverinə Qarşı Mübarizə Təşkilatının sədri Ramiz Alıyev deyib.

Onun sözlərinə görə, "5-ci kolon" və onun nümayəndələri xarici ölkələrdə baş verən polis zorakılığını özündə əks etdirən foto və videogörüntüləri sosial şəbəkələrdə paylaşaraq Azərbaycanda baş vermiş hadisə kimi təqdim etməklə vətəndaşlarımızda polis əməkdaşlarına qarşı nifrət hissi yaratmağa çalışırlar: "Çünki Azərbaycan polisi erməni lobbisinə xidmət edən bu cür vətən xainlərinə imkan vermir ki, onlara maliyyə ayıran düşmən ölkənin lobbisinin planları və arzuları həyata keçərək ölkəmizdə təxribat olsun, dövlətimiz "5-ci kolon"nun əlinə keçsin".

Ramiz Alıyev xatırladıb ki, COVİD-19 pandemiyası başlanıldığı ilk gündən dünyanın bütün ölkələrində polis-vətəndaş qarşıdurmaları baş verirdi və hətta bu, adi hala çevrilmişdi: "Ancaq 2020-ci ilin mart ayından, ölkəmizdə pandemiya ilə bağlı karantin qaydaları tətbiq edilməyə başlanıldığı gündən Azərbaycan polisi vətəndaşlarımızın yanında oldu, pandemiya ilə mübarizədə həkimlərimizlə birlikdə ön cəbhədə gecə-gündüz, istirahət etmədən vuruşdu, ehtiyacı olan minlərlə aztəminatlı ailələrə maddi dəstək oldu. Öz aylıq maaşlarından bir hissəsini cənab Prezidentin çağırışına dəstək olaraq könüllü formada Koronavirusla Mübarizəyə Dəstək Fonduna köçürdülər. Bütün bunlarla yanaşı, ölkə ərazisində ictimai asayişi ən yüksək formada qorudular. Son olaraq da 14 iyul tarixində vətəndaşlarımız ölkə Prezidentini və əsgərlərimizi dəstəkləmək məqsədi ilə təşkil etdikləri yürüşün sonunda bu "5-ci kolon"un təmsilçilərinin həyata keçirdiyi təxribatın qarşısını peşəkarlıqla aldılar və bir daha həm xalqımıza, həm də bütün dünyaya göstərmiş oldular ki, Azərbaycan polisi qətiyyətlidir, vətənpərvərdir, ölkə Prezidentinə və dövlətimizə sadiqdir və heç bir zaman imkan verməz ki, hansısa bir düşmən lobbiyə xidmət edən "5-ci kolon" və onun nümayəndələri ölkədə təxribat törədə bilsin. Azərbaycan polisi bir daha göstərmiş oldu ki, hər an xalqının keşiyində durmağı bacarır".

***Ceyhun Rasimoğlu***

# YAP-çı fəaldan Rüfət Səfərova çağırış: "Düz yola qayıt"

*"Əli Kərimli bir timsahdır, o, öz qurbanını yeyir, sonra da göz yaşı tökməyə başlayır"*

***AXCP sədri Əli Kərimlinin siyasi girovuna çevrilmiş Rüfət Səfərovla bağlı ilginc məqam üzə çıxıb. Belə ki, onun radikal müxalifətin yanında olması ilə yanaşı, həyatını məhz Əli Kərimli kimi yalançının, riyakarın yolunda gùdaza verməsinə göz yuma bilməyən YAP fəalı Rəşadət Xalıqov sabiq prokuroru doğru yola qayıtmağı tövsiyə etməklə yanaşı, AXCP sədrinin əsl məqsədini də ona xatırladıb. SİA xəbər verir ki, bu barədə sosial şəbəkədə paylaşım edən YAP fəalı eyni zamanda R.Səfərovu danılmaz faktlar qarşısında da qoyub.***





"Rüfət Səfərov, səni heç kim təhdid etmir. Sənə heç kəs güldən ağır söz demir. Sadəcə olaraq gəncsən və ona görə istəyirik ki, tez bir zamanda ayılıb Əli Kərimlinin kim olduğunu görüb, ətrafından çəkiləsən", yazan R.Xalıqov fikirlərini belə izah edib. SİTAT: "Çünki Əli Kərimli bir timsahdır, o, öz qurbanını yeyir, sonra da göz yaşı tökməyə başlayır. Sahib Kərimovu, Aydın Kərimovu, Ruslan Beşirlini, Qorxmaz Əliyevi xatırla".

### "Nə qədər gec deyil, Əli Kərimli səni Oqtay Gülaliyev kimi istismar etməyib, ondan uzaqlaş"

YAP-çı fəal hüquq müdafiəçisi, "Milli Şura"nın üzvü Oqtay Gülalıyevin yaşadıqlarını da sabiq prokurorun diqqətinə çatdırıb: "Oqtay Gülalıyev bədbəxt hadisə nəticəsində indiki vəziyyətinə düşdü və özün də görürsən ki, Heydər Əliyev Fondu maliyyə vəsaiti ayırır ki, tezliklə ayağa qalxsın. Yəqin ki, Oqtay Gülalıyev ayağa qalxandan sonra Əli Kərimlinin çirkin əməllərini ictimaiyyətə açıqlayacaq. Çünki, Oqtay Gülalıyev də başqaları kimi Kərimli ailəsinin maddi maraqlarının qurbanı oldu. Ona görə də, nə qədər gec deyil, Əli Kərimli səni Oqtay Gülalıyev kimi istismar etməyib, ondan uzaqlaş. Əli Kərimli kimilərin ailəsinə xidmət etmə və imkanın olanda sual et ki, Türkel Kərimli, Selcan Kərimli hansı pullarla xaricdə bahalı həyat yaşayır? Niyə onlar milyonluq hesablara malikdirlər, amma sadə cəbhəçilər həbsdədirlər?"

### "Sevinc Osmanqızının xuliqan, bandit deyib təhqir etdiyi azərbaycanlıların hüquqlarını qoru, erməni əsirliyində olan Dilqəm Əsgərovun, Şahbaz Quliyevin hüquqlarını tələb et"

YAP-çı gən sonda daha bir faktı da R.Səfərovun qarşısına qoyaraq yazıb: "Əgər sən dediyin kimi hüquq müdafiəçisisənsə, o zaman Sevinc Osmanqızının xuliqan, bandit deyib təhqir etdiyi azərbaycanlıların hüquqlarını qoru. Əgər sən hüquq müdafiəçisisənsə, erməni əsirliyində olan Dilqəm Əsgərovun, Şahbaz Quliyevin hüquqlarını tələb et. Əgər bunları etməsən, demək ki, sən də Kərimlinin şarlatan planlarının bir parçasısan və siyasi məqsədlərin var..."

***Rövşən RƏSULOV***

# Gültəkin Hacıbəylinin Belarus xülyaları necə pozuldu?

*Yaxud, "evdar qadın" onu ali vəzifəyə gətirə bilmədi*



Özünü "Milli Şura"nın "ledisi" kimi təqdim edən qurumun koordinasiya mərkəzinin üzvü Gültəkin Hacıbəylinin uğursuz proqnozları bu dəfə də onu dar ayaqda qoydu. Başqa ölkənin siyasi-ictimai hadisələrini dərhal Azərbaycana aid etmək vasitəsi ilə var-gəl edib, ənənəvi olaraq "növbə Azərbaycanındır" tipli sərsəm fikirlər səsləndirən G.Hacıbəyli indi də başqa cür nala-mıxa döyəcləməklə özünü necə deyərlər, "sudan quru çıxarmağa" cəhdlər göstərir.

Əslində, bu kimi cəhdlər radikal düşərgədə ilk dəfədir ki, baş vermir. Həmin uğursuz ənənənin təməlini isə, məhz G.Hacıbəylinin ağası AXCP sədri Əli Kərimli qoyub. Məsələn, xatırlada bilərik ki, uzun illər əvvəl Gürcüstanda baş vermiş "Qızılgül inqilabı" dövründə həmin Ə.Kərimli dərhal hərəkətə keçərək, həmin hadisələrin burada da yaşanacağı barədə xəyallara daldı, Ukraynadakı birinci və ikinci "Maydan hərəkatı"nda da eyni xəyallara dalındı, Tunisdə göyərtisatanın özünü yandırması, Latın Amerikası və s. ölkələrdə yaşanan olaylarda da AXCP sədri hay-haray salaraq, "inqilabdan" dəm vurdu. Amma heç nə onun istədiyi kimi olmadı, çünki onun düşüncələri xülya, xəyal, utopiya olmaqla yanaşı, həm də xalq bu ünsürə rədd cavabını verdi. Bu, danılmaz faktdır və dəfələrlə öz təsdiqini köklü şəkildə sübuta yetirib.

### Bu dəfə Belarusda baş verən olaylara kərimlisayağı yanaşma edib

Lakin bütün bu kimi faktlara baxmayaraq, dəridən-qabıqdan çıxan G.Hacıbəyli bu dəfə Belarusda baş verən olaylara kərimlisayağı yanaşma edib. Halbuki, hər hansı bir ölkədə prezident və ya istənilən bir seçkinin keçirilməsi həmin ölkənin daxili işidir. Düzdür, müəyyən fikirlər, mülahizələr aparıla bilər, amma həmin hadisələri bir ölkədən başqa ölkəyə transfer etmək kimi cəhdlər, sadəcə, gülünc və istehzadoğurucudur.

Digər tərəfdən, bu gün özlərini "əsas müxalifət" kimi zorla ictimai rəyə sırımağa cəhdlər göstərənlərin əslində, bu xalqın, bu millətin, ən əsası isə, bu dövlətin düşmənləri olması artıq dəfələrlə sübuta yetirilib. Neftin qiymətinin aşağı düşməsi ilə bağlı bir-birlərini təbrik edən, xalqın sosial vəziyyətinin pisləşməsini arzulayan, məhz bu vasitə ilə hakimiyyətə yiyələnəcəklərini xəyal edən, açıq-aşkar dövlətçilik maraqlarını hədəfə alıb, düşmən dəyirmanına su tökən ünsürlərin özlərini bu qədər ucuzlaşdırmaları, gündəmdə qalmaq üçün etdikləri var-gəlləri sözün əsl mənasında əttökənlikdir!

### Gültəkin Hacıbəyli Sorosun Belarus planına dəstək göstərməklə erməni lobbisinin nökəri olduğunu sübuta yetirdi

Bütün bunlar ola-ola, utanıb-qızarmadan Belarus dövlətinin və xalqının gələcəyinin "proqnozlarını" verən "Milli Şura" yığnağı və onun G.Hacıbəyli adlı "ledisi" hələ də anlamaq istəmir ki, bir dövlətin digər dövlətlə münasibətlərinin normal olması bütövlükdə hər iki dövlətin maraqlarına cavab verən reallıqdır. Bu gün Belarus strateji cəhətdən Azərbaycana daim dəstək göstərən ölkələr sırasında yer almaqdadır. Hətta işğalçı Ermənistanın Azərbaycanın dövlət sərhədində - Tovuz rayonu istiqamətində törətdiyi təxribatçı cəhdləri zamanı, Belarus KTMT üzvü olmasına rəğmən, Azərbaycanın tərəfində bu və ya digər şəkildə dayandı, ərazi bütövlüyümüzü dəstəklədiyini bəyan etdi. Demək, G.Hacıbəyli "Milli Şura"dakı təmsilçiliyi vasitəsi ilə xarici təşkilat və fondların, xüsusilə Sorosun Belarusdakı ictimai-siyasi sabitliyi pozmağa hesablanmış addımlarına dəstək verməklə, bilavasitə işğalçı Ermənistana da dəstək göstərdiyini dolayısı ilə sübuta yetirmiş oldu. Bu isə təəccüblü deyil. Xatırlayarsaq ki, əgər Ə.Kərimli AXCP və "Milli Şura" adından Ermənistanın Nikol Paşinyan rejimini "demokratik hakimiyyət" kimi təqdim edibsə, demək, bu ünsürlər birbaşa Soros fonduna, erməni lobbisinə və erməni lobbisinin maliyyəsi ilə hərəkət edən xarici təşkilatlara nökərçilik edirlər. Bu qədər bəsit!

Yeri gəlmişkən, özlərinin bir işi bacarmadıqları halda, başqalarının işlərini örnək kimi göstərənlərin bu kimi davranışları həqiqətən də heç bir ağıla, dərrakəyə sığmayan bir amildir. Yəni insan nə qədər siyasi savadsız, düşüncəsiz olmalıdır ki, Belarusdakı seçkilərə "evdar qadın" adı altında atılmış "namizədin" həqiqətən də, bu sosial kateqoriyaya aid olduğuna inanasan...

"Evdar qadın" Svetlana qaçdı Litvaya, Gültəkinin sevinci isə ikicə gün çəkdi...

Məhz G.Hacıbəylinin bu ərəfədə Svetlana Tixanovskayanı bu qədər ciddi-cəhdlə tərifləməsi adamda belə bir təəssürat yaradırdı ki, Sorosun "evdar qadını" hakimiyyətə gələr-gəlməz G.Hacıbəylini Belarus hakimiyyətinin ali vəzifələrindən birini verəcək. Amma nə baş verdi? Bəlli oldu ki, Svetlana Tixanovskayanın Belarusiyada namizəd olmasını bir sıra tanınmış politoloqlar "Tixanovskaya layihəsi" adlandırırdılar. Layihə isə artıq başa çatıb və "evdar qadın" ölkədən fərarilik edərək, Litvaya qaçdı. Ortada siyasi sabitliyi bərpa edən hüquq-mühafizə orqanları ilə bir qism etirazçı kütlə qarşı-qarşıya qaldı, yaralananlar, təəssüf ki, ölən də oldu. G.Hacbəylinin isə sevinci cəmi ikicə gün çəkdi. Onun xam xəyalları düşdü bataqlığın ən dərin yerinə. İndi bundan sonra görək hansı havanı çalıb, hansı rəqsi edəcəklər. Çünki bunlardan nə desən gözləmək olar...

***Rövşən RƏSULOV***

# Elnur Qasımov Qənimət Zahidlə Həbib Müntəziri "şərəfsizlər" adlandırdı

***Həbib Müntəzirin və Qənimət Zahidin şəklini paylaşdığı və polis əməkdaşı olduğu iddia edilən Elnur Qasımov danışıb.SİA xəbər verir ki, onun hüquq-mühafizə orqanlarında çalışması ilə bağlı iddialara heç bir əsas yoxdur və ümumiyyətlə, polislə əlaqəsi mövcud deyil.***



"Mən özüm taksi sürücüsüyəm, polislə heç bir əlaqəm yoxdur. Dünəndən aləm dəyib bir-birinə, bütün qohum-əqrəba mənim üstümə düşüb", deyə bildirən E.Qasımov onun şəkillərini yayan AXCP funksioneri Qənimət Zahidi və Həbib Müntəziri tapacağını, məhkəməyə müraciət edəcəyini də bildirib. O, qəzəbini gizlədə bilməyərək, həmin adamları "şərəfsiz" adlandırıb: "Şəklimi hansı şərəfsiz yayıb, bilmirəm. Mən hüquq-muhafizə orqanlarına və məhkəməyə şikayət etməyə gedirəm. Polislə heç vaxt əlaqəm olmayıb, hazırda da yoxdur. Mən sıravi vətəndaşam, ailəmi güclə dolandıran bir şəxsəm. Mənim şəklimi yayaraq polislə adımı hallandırmaq yolverilməzdir, mənə və ailəmə böyük təhqirdir. Mən o şəkilləri yayanları tapacağam. Digər fotolarda olan şəxsləri də tanımıram".

Xatırladaq ki, hazırda Avropa ölkələrində yaşayan və sosial şəbəkələrdə Azərbaycan dövləti əleyhinə fəaliyyət göstərən şəxslər - Qənimət Zahid və Həbib Müntəzir Elnur Qasımovun guya polisdə fəaliyyət göstərdiyini və onun müxalifətçilərə qarşı işgəncə tətbiq etdiyini iddia edən saxta fotolar yayıblar. Sonradan bəlli olub ki, onun bu iddialara heç bir aidiyyatı yoxdur, eyni zamanda, Q.Zahid və H.Müntəzir növbəti dəfə Azərbaycan dövlətinin və polisinin nüfuzunu ləkələməkdən ötrü belə bir rəzil addıma əl atıblar.

***R. RƏSULOV***

***Azərbaycanda ictimai şüurun formalaşması prosesində, xüsusilə, əxlaqi-etik normaların zənginləşməsində dinin müəyyən rolu olmuşdur. Heydər Əliyev milli ideologiya haqqında bəhs edərkən dinlə əlaqədar fikirlərini belə ifadə edir: "Biz müstəqillik əldə edəndən sonra islam dinini özümüzə qaytardıq. Yəni bu din insanların qəlbində həmişə yaşayırdı, ancaq rəsmi deyildi. Bu, rəsmi qayıtdı, bərpa olundu. Şübhəsiz ki, müqəddəs kitabımızda, "Qurani-şərif"də böyük əxlaqi normalar əks olunubdur. Onlardan səmərəli istifadə etmək lazımdır".***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Azərbaycançılıq və dini dəyərlər

Dindən səmərəli istifadə etmək belə başa düşülür ki, bu dinə etiqad göstərən hər bir kəs onun qanunlarına, etik-əxlaqi normalarına hörmətlə yanaşmalıdır. Şərt onda deyildir ki, hər bir vətəndaş hökmən Quranı təhlil etməyi bacarmalıdır. Ancaq hər kəsin borcudur ki, dini ayinlərə hörmətlə yanaşsın, fanatizmə meyl göstərməsin. Dini dünyagörüş, şəriət qaydaları əsrlərlə insanların ictimai şüurunda özünə yer tapmış olduğu üçün qeyri - ənənvi dinlərə və ya təriqətlərə meyl göstərilməsin. İbadət yerlərinə, müqəddəs sayılan şəxsiyyətlərə və ziyarətgahlara ehtiram göstərilsin. Heydər Əliyev bütün bunları ümumiləşdirərkən öz fikrini cəmiyyətdə aydın dəlillərlə çatdırır: "Biz imkan verməməliyik ki, dini bəzi "şəxsi məqsədlər üçün istismar etsinlər. Buna imkan verməməliyik. Dinin ondan öz məqsədləri üçün istifadə etmək istəyən ayrı-ayrı adamların əlinə keçməsinə imkan verilməməlidir. Din həqiqi din xadimləri tərəfindən istifadə və tətbiq olunmalıdır. Burada da bizim görəcəyimiz işlər çoxdur və biz dini təbliğ edərkən müqəddəs islam dininin əxlaq normalarını ölkəmizdə vətəndaşların arasında geniş yayarkən, eyni zamanda, fanatizmə yol verməməliyik. Fundamentalizm, fanatizm heç də müqəddəs kitabımızın mənası deyil. Bu sonradan yenə də dindən istifadə edib öz siyasi məqsədlərinə nail olmaq üçün, yaxud da ki, öz dövlət işlərini qurmaq üçün yaranmış ayrı - ayrı istiqamətlərdir. Biz, Azərbaycanda buna yol verməməliyik".

Nəzərə almaq lazımdır ki, müasir dövrdə senzurasız ədəbiyyatın yayılması imkanlarından istifadə edən şəxslər və ya təşkilatlar islam dinini təbliğ etmək üçün saysız-hesabsız ünvanı, nəşr yeri, bəzən də müəllifi bilinməyən kitablar və kitabçılar çap etdirirlər. Bunların bir çoxu insanları haqqa, ədalətə, mənəvi kamilliyə dəvət etmək əvəzinə onlarda küskün, bədbin əhval-ruhiyyə yaratmağa meyllidir. Ona görə də xüsusən gənclər arasında azərbaycançılıq şüuru bazasmda maarifləndirmə işi aparılmalıdır. Heydər Əliyevin tövsiyə etdiyi kimi, gənclər dünyaya ayıq gözlə baxmalı, təşəbbüskar olmalı, həyati çətinliklərdən çıxış yollarını axtarıb tapmağa daim səy göstərməlidirlər. İslam dininə aid həqiqətlər isə birbaşa müqəddəs Quranda öz təsdiqini tapmışdır. Quran ilahi bir kitab kimi özündə üçölçülü məntiqin məhdətinin təcəssüm etdirir.

Zahiri məntiq - oxunanların başa düşülməsinə və onlara riayət olunmasına xidmət edir. Zahiri məntiq ayinlərin düzgün, dəyişdirilmədən öz norması hüdudunda yerinə yetirilməsini şərtləndirir.

Batini məntiq - dünya və axirət, bədən və ruh, işıq və qaranlıq, görünən və görünməyən kimi əksikliklərin qarşılıqlı vəhdətidir. Batini məntiq bəşəriyyətin böyük kəşflərə nail olunmasının irfan qapısıdır.

Bəşəri məntiq - cəmiyyət həyatında əxlaqi-etik münasibətlərin, insanların hüquq və azadlıqlarının təminatçısıdırtəminatçısıdır. Bəşəri məntiq bütün əsrlər boyu cəmiyyətdə vacib olan həyat və məişət normalarının məcmusudur.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Eyni zamanda ulu öndər gənclərimizi, xalqımızın milli-mənəvi dəyərləri, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi. Ulu öndər gənclərimizin milli-mənəvi dəyərlər əsasında tərbiyələndirilməsinin əhəmiyyətini xüsusi vurğulayırdı: "... Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".

Azərbaycan xalqı tarixin ən çətin dövrlərində belə, öz zəngin milli-mənəvi irsini və adət ənənəsini yad təzahürlərdən hifz edərək onu qoruyub saxlamış və nəsildən-nəsilə ötürmüşdür. Heydər Əliyev Qara Qarayevə, Fikrət Əmirova, Niyaziyə, Rəşid Behbudova Sosialist Əməyi Qəhrəmanı adı verilməsinə nail oldu. Xalqımızın milli-mənəvi dəyərləri, adət-ənənəsi insanlarımızın dini etiqadına əsaslanaraq özündə çox böyük milli əxlaqi və bəşəri duyğuları təcəssüm etdirir. Müqəddəs daxili inama, mənəvi saflığa tapınan Azərbaycan xalqı tarixin ən keşməkeşli mərhələlərində belə mənəviyyatın təntənəsinə xidmət edən İslam dininin zəngin dəyərlərindən dönməyərək onlara həmişə sadiq qalmışdır. İslam dininin mahiyyətini dərk edən xalqımız onun insan ruhunu paklığa səsləyən müqəddəs çağırışlarına, mərasim və ayinlərinə tarixin bütün məqamlarında əməl etməyə çalışmışdır. Ulu öndər bu haqda demişdir: "Bizim xalqımız yüz illərlə, min illərlə adət ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıb və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".

Heydər Əliyev 1969-1982-ci illərdə respublikaya rəhbərlik edərkən sovet rejiminin olduqca sərt xarakterinə baxmayaraq, milli ənənələrimizin qorunub saxlanması üçün böyük fədakarlıq göstərirdi.

Ulu öndərin 1993-cü ildə hakimiyyətə qayıdışı gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın - azərbaycançılığın təşəkkül və inkişafına müstəsna diqqət vermişdir.

Ümummilli lider Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə (1993-2003-cü illər) xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, xüsusən, İslam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi onun xalqa mənən bağlılığını və İslami dəyərlərə sədaqətini göstərən parlaq dəlillərdir. Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra respublikamızda dini bayramların, o cümlədən, Qurban bayramının qeyd olunmasını rəsmiləşdirən ulu öndər demişdir: "Müsəlmanların böyük bir təntənə ilə, həmrəylik və qardaşlıq rəmzi ilə qeyd etdikləri Qurban bayramı insanlar üçün yüksək bəşəri-mənəvi dəyərlərdən faydalanmaq imkanları yaradır. İslamın insanpərvərlik, mehribanlıq və mərhəmət prinsiplərinə həmişə sadiq qalmış Azərbaycan xalqı tarixin çətin dövrlərində belə, Qurban bayramını özünün ən əziz günlərindən biri kimi qeyd etmişdir. Dövlət müstəqilliyimizin bərpasından sonra bu günün rəsmi şəkildə bayram edilməsi xalqımızın öz milli və dini ənənələrinə sədaqətinin parlaq ifadəsidir". Heydər Əliyev mürəkkəb struktura malik olan milli-mənəvi dəyərlər sistemində onun üç tərkib hissəsini xüsusi ilə qeyd edirdi: dil, din və adət-ənənə.

"Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı- Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq", - deyən Heydər Əliyev Azərbaycançılığı milli bir ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi-dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın, dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi.

Ümummilli lider nəinki konsepsiyanı yaratdı, həm də çox böyük müdrikliklə, səbr və təmkinlə həyata keçirtdi. "...Fəxr edirəm ki, mən azərbaycanlıyam!" - deyən ulu öndər bütün həyatı boyu mənəvi- əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu.

Heydər Əliyev həmişə həm müdrik el ağsaqqalı, həm də təcrübəli dövlət başçısı kimi, cəmiyyətimizin mənəvi əsaslarını təşkil edən ümdə prinsiplər və onların qorunub inkişaf etdirilməsi istiqamətləri barədə çox dəyərli fikirlərini xalqla bölüşmüşdür. Belə bir ünsiyyətin fərqləndirici əlaməti onun rəsmiyyətdən uzaqlığı, cəmiyyətin sadə üzvləri ilə daim təmasda olması, həmişə xalqa bağlılığı ilə şərtlənirdi. Heydər Əliyev öyrədirdi ki, sərvət toplamaq, son dəbdə geyinmək, bütövlükdə müəyyən maddi sərvətlərə malik olmaq mümkündür. Lakin hər bir insan və hər bir millət, hər şeydən əvvəl, öz xalqının mənəvi sərvətlərinə sahib çıxmalı, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və milli-mənəvi dəyərlərini qorumalıdır. Gələcək nəsillərə, bəlkə də, maddi sərvətlər və iqtisadi mirasdan daha çox mənəvi irs, milli mentalitet ərmağan edilməlidir.

Ulu öndər özünün mənəviyyatla bağlı məşhur 2001-ci ilin avqust bəyanatında milli mentalitetlə əlaqədar demişdir: "Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik".

Ölkəmiz müsəlman dünyasının ayrılmaz hissəsi olaraq İslam mədəniyyətinin inkişafına tarixən öz töhfələrini vermişdir. Eyni zamanda, İslam dini xalqımızın həm dini əqidəsi, həm də milli-mənəvi dəyərlərin tərkib hissəsi kimi insanların həyatında mühüm rol oynamışdır.

Xalqımızın mənəvi inkişafında, gənclərimizin əxlaqının formalaşmasında azərbaycanlıların ailə institutunun möhkəm təmələ söykənməsində İslamın rolu əvəzsizdir. İslam bütün müsəlman dünyası tərəfindən qəbul edilə biləcək vahid ilahiyyat konsepsiyası yaratmışdır. İslamın həyat qabiliyyəti dini sistem çərçivəsində müxtəlif nöqteyi- nəzərlərin yanaşı mövcudluğuna imkan verməsi ilə təmin olunur. Ulu öndər milli-mənəvi dəyərlərin xalqın, vətəndaşların milli birliyinə xidmət etdiyini həmişə vurğulamış, dini bayramların milli həmrəyliyin təmin edilməsində mühüm rol oynadığını qeyd etmişdir.

***Vahid Ömərov f.ü.f.d. dos.***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

13 avqust

## Mayk Tayson və Roy Cons arasında keçiriləcək döyüş titul xarakterli olacaq




Əfsanəvi boksçular Mayk Tayson və Roy Cons arasında keçiriləcək döyüş titul xarakterli olacaq. TASS informasiya agentliyi xəbər verir ki, aparıcı boks təşkilatları - WBC (Dünya Boks Şurası), WBO (Dünya Boks Təşkilatı), WBA (Dünya Boks Assosiasiyası) və IBF (Beynəlxalq Boks Federasiyası) döyüş üçün xüsusi kəmər hazırlayacaqlar. Döyüşdə iştirak edəcək hakimlər qarşılaşmanın vaxtından əvvəl bitəcəyi təqdirdə qalibi müəyyən edəcəklər.

Döyüş noyabrın 28-də Kaliforniya ştatında baş tutacaq və 8 raunddan ibarət olacaq. Bundan əvvəl ESPN telekanalı döyüşün sentyabrın 12-də keçiriləcəyini bildirmişdi.

Əlli üç yaşlı Mayk Tayson karyerası ərzində 58 döyüş keçirib. Onların 50-də qələbə (44-ü nokautla) qazanan dünya şöhrətli boksçu 6 qarşılaşmadan məğlub ayrılıb. Roy Consun hesabında 47-si nokautla olmaqla 66 qələbə var.

## Koutinyo "Barselona"ya qarşı oynaya bilər?



*İcarə əsasında "Bavariya"da çıxış edən Filipp Koutinyo müqavilə ilə məxsus olduğu "Barselona"ya qarşı Çempionlar Liqasının 1/4 final matçında oynaya bilər. Qol.az İspaniya mətbuatına istinadən xəbər verir ki, braziliyalı yarımmüdafiəçi Kataloniya təmsilçisinə məxsus olmasına baxmayaraq, onun icarə müqaviləsində Avropa turnirlərində "Barselona"ya qarşı oynamamaq qadağası yoxdur. Beləliklə, baş məşqçi Hans Diter Flik şans verəcəyi təqdirdə, o, sözügedən görüşdə meydanda olacaq. Qeyd edək ki, "Barselona" - "Bavariya" oyunu avqustun 14-ü keçiriləcək.*

## Azərbaycan çempionatında yoluxma olarsa, hansı qərar veriləcək?

"Hansısa komandada yoluxma olmasını istəməzdik". Qol.az xəbər verir ki, bunu Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayev Azərbaycan Premyer Liqasında 2020/2021 mövsümünün püşkatma mərasimində deyib. O bildirib ki, belə bir hal baş verərsə, çempionatla bağlı daha üst qurumların qərar və tövsiyələrinə əməl edəcəklər. Musayevin sözlərinə görə, bu, PFL-dən asılı olmayacaq. Premyer Liqa ilə bağlı sponsorluq məsələsinə də toxunan Musayev bunun yenidən gündəmə gələ biləcəyini istisna etməyib: "Pandemiya hamı kimi, bizə də təsir etdi. Bir şirkətlə martda uzunmüddətli müqavilə planlaşdırırdıq. Ola bilər ki, onlarla yenidən danışıq aparıb müqavilə bağladıq".



## Hande Erçel məşhurla sevgili olması iddialarına belə reaksiya verdi



**Aktrisa Hande Erçel Murat Dalkılıçdan ayrılması və "Sen çal kapımı" serialında tərəf müqabili Kerem Bursinle eşq yaşaması iddialarına cavab verib. Türkiyə mətbuatı xəbər verir ki, bir markanın reklamına çəkilən ulduz çıxışda jurnalistlərin suallarını cavablandırıb. O, müğənnidən niyə ayrılmasının səbəbini belə izah edib: "Açıqlamamı vermişəm, sosial şəbəkədə gözəl-gözəl yazdım, siz də gördünüz. Murad mənim üçün hər zaman dəyərli bir insan olaraq qalacaq. Pis bir münasibət yoxdur. Etməli olduğum hər şeyi etdim". Daha sonra isə yeni serialdakı tərəf müqabili Kerem Bursinlə sevgili olduğu xəbərləri haqqında danışmaq istəməyən Hande avtomobilinə minərək uzaqlaşıb.**

## Ermənistanda koronavirusdan ölənlərin sayı 800-ü ötüb



Ermənistanda koronavirusa yoluxma halları yenidən artıb. Son 24 saat ərzində daha 201 nəfərdə koronavirus aşkarlanıb. Bununla da Ermənistanda virusa yoluxanların sayı 40 min 794 nəfərə çatıb. AZƏRTAC xəbər verir ki, bu barədə Ermənistanın Səhiyyə Nazirliyinin Xəstəliklərə Nəzarət və Profilaktikası Milli Mərkəzi məlumat yayıb.

Qeyd olunub ki, ölkədə pandemiya qurbanlarının sayı da artaraq 806 nəfərə çatıb. Onların da 3-ü son sutka ərzində dünyasını dəyişib. Bundan başqa, son sutka ərzində daha 234 nəfər koronavirus xəstəsi başqa səbəblərdən ölüb. Hazırda ölkədə 6 min 262 aktiv koronavirus xəstəsi var.

## Avtomobildən sənədsiz tüfəng tapılıb



**Polis əməkdaşları qanunsuz saxlanılan silah-sursatın aşkarlanaraq götürülməsi məqsədilə növbəti əməliyyat tədbiri keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Şəmkir Rayon Polis Şöbəsi əməkdaşları daxil olmuş məlumat əsasında Şəki rayon sakini O.Ramazanovun idarə etdiyi "VAZ-21214" markalı avtomobilə baxış keçiriblər. Avtomobildə müvafiq sənədləri olmayan "BUM" markalı ov tüfəngi aşkarlanaraq götürülüb.**

Yevlax Rayon Polis Şöbəsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində isə şəhər sakini, əvvəllər məhkum edilmiş Ə.İbrahimova məxsus "KIA" markalı avtomobilə baxış zamanı ov bıçağı aşkarlanıb. Faktlarla bağlı araşdırmalar davam etdirilir.

## ELAN

**Kərimov Elnur Fikrət oğluna məxsus Abşeron rayonu Saray qəsəbəsi ərazisində yerləşən 922 kvm torpaq sahəsinə dair DTXK-nin Abşeron rayon şöbəsi tərəfindən 08.08.2011-ci il tarixində 17072 qeydiyyat nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyinə görə, etibarsız sayılır.**

## Dünyanın ən çox məvacib alan aktyorları açıqlandı



Dünyanın ən çox məvacib alan aktyorlarının siyahısına il ərzində 87,5 milyon ABŞ dolları qazanan Duayn Conson başçılıq edir. Siyahını "Forbes" jurnalı dərc edib. Məlumata görə, ikinci yerdə 71,5 milyon dollarla Rayan Reynolds, üçüncü yerdə isə 58 milyon dollarla Mark Uolberq qərarlaşıb.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**